RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 209 (9664) 25 sentyabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "ADEX" müdafiə sənayemizin inkişafı üçün səmərəli platformadır

### Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də "Bakı Ekspo Mərkəzi"ndə keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış olub.

→ 2

## Son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir

### "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları və əziz qonaqlar!

Sizi "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayıram. Azərbaycana xoş gəlmişsiniz!

Ölkəmiz mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə və böyük peşəkarlıqla təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirmişdir. Azərbaycanın belə genişmiqyaslı və son dərəcə əhəmiyyətli tədbirləri keçirmək üçün müasir infrastruktura malik və təhlükəsizlik baxımından sabit ölkə olması dünya ictimaiyyəti tərəfindən hər zaman müsbət qiymətləndirilir. Bu il ölkəmizdə baş tutacaq dünyanın qlobal xarakterli mötəbər beynəlxalq tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 da bunun bariz nümunəsidir. Əminliklə söyləmək olar ki, artıq beşinci dəfədir təşkil olunan "ADEX" sərgisi əvvəlki illərdəki kimi yenə də yüksək səviyyədə keçiriləcəkdir. Müdafiə sənayesi də karbon tullantılarının azaldılması baxımından böyük potensiala malikdir. Hesab edirəm ki, COP29 öncəsi keçirilən "ADEX-2024" sözügedən mövzunun peşəkar müzakirəsi üçün əlverişli platformadır.

"ADEX" dost və müttəfiq ölkələrin tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında unikal rol oynayır. Bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır. Tədbirdə dünyaca məşhur yüzlərlə şirkət öz məhsullarını nümayiş etdirir. "ADEX" müxtəlif ölkələrin öz müdafiə və müdafiə sənayesi sahələrini gücləndirmələri, istehsal imkanlarını artırmaları, müasir və innovativ vasitələri tətbiq etmələri və təcrübə mübadiləsi aparmaları baxımından önəmli tədbirdir.

Xüsusi qeyd edim ki, Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrin daha da inkişafı prioritet istiqamətlərdəndir. Son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir. Mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması üzrə işlər uğurla həyata keçirilir. Düzgün aparılmış islahatlar nəticəsində ölkəmizdə istehsal edilən müdafiə təyinatlı məhsulların çeşidi artırılmışdır və bu gün Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Həm Azərbaycanın Silahlı Qüvvələri müasir silah növləri ilə təchiz edilir, həm də dünya ölkələrinin müdafiə sənayesi şirkətləri istehsal etdiyimiz məhsullarla yaxından maraqlanırlar. Bir çox dost və müttəfiq dövlətlərlə müdafiə sənayesi sahəsində yeni əməkdaşlıqlar qurulur, mövcud əlaqələr uğurla davam etdirilir. Azərbaycan müdafiə sənayesi sahəsində dinamik inkişafa nail olmaqla hərbi-texniki imkanlarını genişləndirir.

Beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsində müstəsna rol oynamış Azərbaycan hərbi sənaye kompleksinin gücü və qüdrəti, ölkəmizdə istehsal olunan müasir silahlar da "ADEX" sərgisi çərçivəsində nümayiş olunur. Təsadüfi deyil ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də lokal xarakterli antiterror əməliyyatları zamanı Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində bu gün diqqətlə öyrənilir.

"ADEX" ilə paralel olaraq, hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirən "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi də keçirilir. Bu sərgidə nümayiş etdirilən məhsulların da iştirakçılar tərəfindən maraqla qarşılanacağına əminəm.

Əziz qonaqlar, bir daha hər birinizi Azərbaycanda görməkdən məmnunluğumu bildirir, bütün iştirakçılara və hər iki sərginin işinə uğurlar arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2024-cü il*



# Bayramlar bayramı

## Təməli Qurtuluş Günü ilə qoyulan Dövlət Suverenliyi Günü

Antiterror əməliyyatı Zəfərin son nöqtəsi, ən uca zirvəsi oldu!

Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq ki, 30 illik işğala və erməni separatizminə son nöqtəni qoydu!

İndi isə bizə yeni bayram - Dövlət Suverenliyi Gününü bəxş etdiyinə görə sonsuz təşəkkürümüzü bildiririk!

Bundan sonra hər il sentyabrın 20-də möhtəşəm qələbəmizi sevinclə qeyd edəcəyik!

Bəli, Baş Sərkərdəmizin və ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanda separatizmin toxumu kəsildi!

Azərbaycan dünyada ərazisində separatçı yaşamayan yeganə dövlətə çevrildi!

Azərbaycan həm də dünyada erməni diasporunun və onun əlaltılarının mövcud olmadığı yeganə ölkədir!

30 ilə yaxın bir müddətdə soyqırımı günlərini, işğal günlərini, qara bayramları keçirirdik.

İndi isə zəfər günlərimizi, şəhər günlərimizi sevinc və fərəhlə qeyd edirik!

* Bu gün dünya qarşısında alnımız açıqdır: torpaqlarımızı işğalçılardan təmizləmişik, ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi bərpa etmişik!

* Bu gün şəhidlərimiz qarşısındakı müqəddəs borcumuzu ləyaqətlə yerinə yetirmişik:

Onların qisasını almışıq, ocaq söndürənlərin ocaqlarını söndürmüşük!

Artıq qalib və qürurlu millətik!

Belə bayramlar hamımıza yaraşır!

→ 5

## Tarixin ən güclü Azərbaycanı

Ümummilli Liderin ölkənin gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürməsi tarixin axarını dəyişdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf proseslərini uğurla davam etdirərək Azərbaycanı tarixdəki ən güclü çağlarına yetirən cənab İlham Əliyev xalqımızı böyük Zəfərə - ən böyük hədəfinə çatdırdı.

"Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr Dövlət Suverenliyi Günü idi".

Artıq yaşadığımız bu günlər xəyal deyil, reallıqdır, təqvimdə öz əlamətdar yerini tutmuş qürur günümüzdür. Bu günün işığında Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur, dirçəlir. Soydaşlarımız öz el-obalarına qayıdırlar, bu əzəli-əbədi yurdlarımızda yaradılan yeni təhsil müəssisələrində, o cümlədən Qarabağ Universitetində gənclərimiz sabaha doğru inamlı addımlarını atırlar. Onların gələcəyi daha xoşbəxt, daha əmin olacaq. Çünki bu gənclərimiz tarixin ən güclü Azərbaycanının vətəndaşlarıdırlar.

→ 6

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Əhmədlidə əsaslı təmirdən sonra istifadəyə verilən qəsəbə məscidindən paylaşım edib



Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "İnstaqram" sosial şəbəkəsindəki hesabında Əhmədlidə əsaslı təmirdən sonra istifadəyə verilən qəsəbə məscidindən paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Uca Allah bütün duaları qəbul etsin. Əhmədli qəsəbə məscidi. Bakı. 23.09.2024".

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Gənclik" parkında ağacəkmə aksiyasından paylaşım edib



Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "İnstaqram" sosial şəbəkəsindəki hesabında "Gənclik" parkında ağacəkmə aksiyasından paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd edilir: "Bakının Xətai rayonundakı "Gənclik" parkında ağacəkmə aksiyası. 23.09.2024".

## Prezidentdən növbəti xoş müjdə

### Gələn il minimum əməkhaqqı və minimum pensiya yenə artacaq

Prezident İlham Əliyev dəfələrlə söylədiyi bu fikri yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində bir daha vurğuladı. İqtisadi sahədə göstəricilərin bu il də müsbət olduğunu bildirdi: "Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, - biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir".

Bunlar sadəcə olaraq qazanılan uğurların yalnız bir hissəsidir. Əlbəttə, görülən işlərdən bəhs edərkən ilk növbədə işğaldan azad olunmuş ərazilərimizdə aparılan geniş bərpa-quruculuq tədbirləri yada düşür. Qarabağın və Şərqi Zəngəzurun bərpası qarşıda dayanan önəmli vəzifədir.

→ 7

## "İstənilən cavabı verməyə hazırıq"

### İlham Əliyev Ermənistana və havadarlarına xəbərdarlıq etdi

Vətən müharibəsindən sonra Azərbaycan öz hərbi gücünü artırıb və Silahlı Qüvvələrimiz 4 il əvvəlkindən qat-qat güclüdür. "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir", - deyə dövlətimizin başçısı bildirmişdir.

Prezident İlham Əliyev həm də silahlanan Ermənistana və onun arxasında duran dövlətlərə xəbərdarlığını etdi: "İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".



→ 7

# "ADEX" müdafiə sənayemizin inkişafı üçün səmərəli platformadır

## Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub
















*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına sərgilər haqqında məlumat verdilər.

İlk "ADEX" sərgisi 2014-cü ildə keçirilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycanda və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

"ADEX" dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında da mühüm rol oynayır.

Bildirildi ki, bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir.

Sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.

Qeyd edildi ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev əvvəlcə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. "Azərsilah"a məxsus pavilyonda PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkcələr, aviabombalar və təlim simulyatorları nümayiş etdirilir.

Belarus Respublikasının pavilyonu ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, "Belspetsvneştexnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi Belarus Hərbi Sənaye Kompleksinə daxil olan dövlət müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsulların idxalı və ixracı proseslərini tənzimləyən dövlət təşkilatıdır. Sərgidə şirkətin qumbaraatan kompleksləri və onun tətbiq variantları, tank əleyhinə raket kompleksləri, atıcı silahlar və zirehli texnika üçün optik cihazlar, modernləşdirilmiş Reaktiv Yaylım Atəş Sistemlərinin maketləri, radiostansiyalar, hava hücumundan müdafiə və elektron müharibə texnikasının maketləri nümayiş olunur.

Sərgidə Serbiyanın "Yugoimport-SDPR" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət silahların istehsalı, yaradılması, modernləşdirilməsi və ixracı istiqamətində aktiv fəaliyyət göstərən serb şirkətləri sırasında birinci yerdədir. Sərgidə şirkət tərəfindən müxtəlif çaplı silah və sursat, o cümlədən hərbi ləvazimatlar təqdim olunur.

Qardaş Türkiyə sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Bu şirkətlərdən biri olan "Roketsan" 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda şirkət bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

"Dearsan Shipyard" gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. "Dearsan" dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi-tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Turkish Aerospace"dir. "Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadəsinə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan "Turkish Aerospace" tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti Pakistanın birinci dərəcəli dövlət mülkiyyətində olan müdafiə konsorsiumudur və ölkənin ən böyük müdafiə istehsalatı müəssisələrini, o cümlədən əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edir. Şirkət tərəfindən sərgidə döyüş PUA-ları, aviasiya raketləri, tank mühafizə sistemləri, maskalanma toru, tank əleyhinə sistemlər nümayiş olunur.

"Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti sərgidə fəal iştirak edir. "Azərsilah"ın daha bir pavilyonu sərginin 3-cü zalında fəaliyyət göstərir. Burada ziyarətçilərə müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, kiçikçaplı patronlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və zirehli gödəkcələr, optik nişangah və cihazlar təqdim olunur.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "REPKON"dur. Şirkət təzyiq ilə metal emalı sektoru üçün tam "açar təslim" istehsal qurğularının tədarükçüsü və qlobal bazar üçün metal emalı maşınlarının inkişaf etdiricisi və istehsalçısıdır. Patentli dizaynı və istehsal "know-how" ilə "REPKON" 1978-ci ildən etibarən dünya üzrə istehsalçılara metal qəlibləmə avadanlığı təqdim edir.

"ADEX" sərgisində iştirak edən Türkiyənin "Meteksan" şirkəti yüksək texnologiyalı şirkətlərin müdafiə sənayesinə yönəlik layihə və fəaliyyətlərini bir araya gətirmək və koordinasiya etmək məqsədilə yaradılıb. Şirkətin əsas məqsədi müdafiə sənayesi sahəsində Türkiyə Silahlı Qüvvələrinə və digər təhlükəsizlik güclərinə yerli, milli, müstəqil və orijinal, yüksək texnologiyalı məhsul və altsistemlər inkişaf etdirmək və istehsal etməkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Türkiyənin "Aselsan" şirkəti artıq beşinci dəfədir "ADEX" sərgisində iştirak edir. Şirkət 1975-ci ildən fəaliyyət göstərir və əsasən elektronika, aviasiya, silah, radar və optik, telekommunikasiya sistemləri, informasiya texnologiyaları və müdafiə sənayesi ilə əlaqədar digər texnoloji məhsullar istehsal edir.

Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin "EDGE Group" şirkəti də öz məhsullarını təqdim edir. 2019-cu ildən yaradılan şirkətin əsas fəaliyyət istiqaməti qabaqcıl innovasiyaları, məhsulları və xidmətləri beynəlxalq bazarlara çıxartmağa yönəlib. Şirkətin əsasən 5 istiqamətdə - platforma və sistemlər, raket və müxtəlif növ silahlar, kosmik və kibertexnologiyalar, daxili təhlükəsizlik vasitələrinin ixracı istiqamətlərində ixtisaslaşıb.

İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi ("IAI") milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir. "IAI" şirkəti sərgidə yerüstü sistemlər, çoxmissiyalı havadan kəşfiyyat və nəzarət sistemləri, radarlar, rabitə sistemləri, PUA-lar üçün komponentlər, çoxsahəli ballistik raketlər və rəqəmsal kommunikasiya peykləri nümayiş etdirir.

Sərgidə İsraili təmsil edən daha bir şirkət "RAFAEL Qabaqcıl Müdafiə Sistemləri" MMC-dir. Şirkət havada, quruda, dənizdə və kosmosda müdafiə, kibertəhlükəsizlik və təhlükəsizliklə bağlı qabaqcıl həllər təklif edir.

İsraili təmsil edən "Elbit Systems" dünya miqyasında müdafiə sahəsi ilə bağlı geniş spektrli proqramlarla məşğul olan beynəlxalq yüksək texnologiya şirkətidir. Şirkət sərgidə ordu idarəetmə mərkəzi, müxtəlif növ yüksək dəqiqlikli raketlərin istifadə olunduğu raket buraxılış qurğuları, avtonom 155 millimetrlik raket atış sistemi, dron və antidron sistemlərini təqdim edir.

Sərgidə İsrailin "Uvision" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət döyüşlərdə sınaqdan keçmiş "Dövr edən döyüş başlığı sistemləri"ni dizayn və istehsal edir, dünyanın müxtəlif ordularına dəqiq və effektiv hücum-əməliyyat imkanları təqdim edir. Şirkətin HERO sistemləri nadir aerodinamik platforma konfiqurasiyaları ilə yüksək dəqiqlikli zərbə qabiliyyətləri təqdim edir.

Rusiya Federasiyası da "ADEX-2024" sərgisində ən çox şirkətlə təmsil olunan ölkələrdən biridir. "Rosoboronexport" Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir. Stenddə şirkətin nəzdində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsullar təqdim olunur.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən "Dəqiq Avadanlıqların İdxalı və İxracı üzrə Çin Milli Korporasiyası" ("CPMIEC") müdafiə sənayesi sahəsində ümummilli ticarət müəssisəsidir. "CPMIEC" sərgidə müdafiə xarakterli raket silah sistemlərinin, aerokosmik avadanlığın, peyk texnologiyalarının, xüsusi cihazların, dəqiq avadanlıqların, optik alətlərin, elektron məhsulların və xüsusi nəqliyyat vasitələrinin idxalı və ixracı ilə bağlı məlumat məhsulları nümayiş etdirir.

Slovakiya sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. Bu ölkənin 2014-cü ildən fəaliyyət göstərən "Deftech" şirkəti PUA sistemlərinin istehsalı və təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərir. Şirkət tərəfindən sərgidə müxtəlif növ zirehli nəqliyyat vasitələri və mobil müdafiə sistemləri təqdim olunur.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Baykar"dır. 1986-cı ildən fəaliyyət göstərən "Baykar" şirkəti ölkədə ilk yerli PUA sistemlərini istehsal edərək müdafiə və aviasiya sənayesində inqilab yaradıb. Şirkət sərgidə "Akıncı" adlı PUA, "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsullarını təqdim edir.

Qətər Dövləti də sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. "Barzan Holdings" dövlətə məxsus müdafiə və təhlükəsizlik şirkətidir. Şirkət Qətərin Müdafiə Qüvvələrinin inkişafını və modernləşdirilməsini dəstəkləmək məqsədilə müxtəlif sahələrdə fəaliyyət göstərir. "Barzan Holdings" sərgidə Qətərin müdafiə və təhlükəsizlik texnologiyalarını nümayiş etdirir.

Sərgidə Ukraynanı bu ölkənin Müdafiə Sənayesi Müəssisələrinin Milli Assosiasiyası ("NAUDI") təmsil edir. 2020-ci ildə yaradılan "NAUDI"nin fəaliyyət sahəsinə zirehli nəqliyyat vasitələri, özüyeriyən haubitsalar, PUA-lar, radarlar, radioelektron mübarizə vasitələri, kamikadze dronları, müşahidə və kəşfiyyat sistemləri, artilleriya, sursat və s. daxildir. Assosiasiyanın tabeliyindəki müəssisələr Ukrayna Müdafiə Nazirliyini NATO standartlarına cavab verən müasir hərbi texnika və sursatlarla təmin edən əsas təchizatçılardır.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Nazirliyinin stendində də oldu. Bildirildi ki, Müdafiə Nazirliyi sərgidə ilk dəfə öz stendi ilə təmsil olunur. Stenddə silahlanmada olan müasir silah sistemləri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin təchizat vasitələri sərgilənir.

*Ardı 3-cü səh.*

# "ADEX" müdafiə sənayemizin inkişafı üçün səmərəli platformadır

## Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub



















*Əvvəli 2-ci səh.*

Eyni zamanda Müdafiə Nazirliyinin tabeliyində olan təmir müəssisələrinin imkanları da təqdim edilir.

Sərgidə həmçinin ziyarətçilərə Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri barədə ətraflı məlumat verilir.

Sonra Prezident İlham Əliyev "Bakı Ekspo Mərkəzi"nin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

"Azərsilah" QSC tərəfindən sərginin açıq havada nəzərdə tutulmuş ərazisində zirehli maşınlar, kəşfiyyat və kamikadze dronları, o cümlədən PUA-lar nümayiş etdirilir.

Sumqayıt Texnologiyalar Parkı (STP) da sərgidə fəal iştirak edir. STP regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən biridir. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan STP 30-dan artıq istehsal sahəsi ilə öz sektorunun lideridir. Sərgidə şirkət tərəfindən silah və sursat, hava bombaları və hava raketləri, simulyatorlar və təlim sistemləri ilə yanaşı, yerüstü hərbi təlim avadanlıqları da nümayiş olunur.

İtaliya da sərgidə ilk dəfə iştirak edir. Bu ölkənin "Exclases Group" şirkəti aviasiya və kosmik sənaye üzrə marketinq, satış və texniki ekspertiza sahələrində ixtisaslaşmış müəssisədir. "Exclases Group" 2008-ci ildən etibarən "Leonardo Helicopters" şirkətinin etibarlı tərəfdaşı kimi hava gəmilərinin və avadanlıqların satışı və marketinqi ilə məşğul olur. Sərgidə şirkətə məxsus olan "Agusta Westland 109" helikopteri təqdim edilir. Sərginin açıq havadakı ərazisində Azərbaycan Müdafiə Nazirliyi tərəfindən də zirehli texnikalar nümayiş etdirilir.

Türkiyənin "Baykar" şirkəti açıq havada da öz məhsullarını təqdim edir. Ziyarətçilər şirkətin istehsalı olan "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsulları ilə yaxından tanış ola bilərlər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, "ADEX" və "Securex Caspian" sərgiləri iştirakçılar, ziyarətçilər və müxtəlif ölkələrdən gələn ekspertlər arasında təcrübə mübadiləsi aparmaq, həmçinin məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaratmaq baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Builki sərgilərin əvvəlkilərdən fərqi daha çox ölkədən şirkət və nümayəndə heyətinin qatılmasıdır. İştirakçı ölkələrin sayının getdikcə artması isə bu sərgilərin bir çox dövlətin hərbi-sənaye müəssisələrinin diqqətini cəlb edən tədbir olduğunu təsdiqləyir.

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının peşə bayramı günlərinin təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Hər il avqustun 23-ü Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

2. Hər il sentyabrın 26-sı Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

3. Hər il martın 16-sı Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

4. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 avqust tarixli 2997 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 758 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1-ci bəndin birinci cümləsində "saylı Əlavəsində" sözləri "nömrəli əlavəsində" sözləri ilə əvəz edilsin.

2. Həmin Qaydaların 1 nömrəli əlavəsi - "İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında aparılan malların Siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur).

3. Həmin Qaydaların 2 nömrəli əlavəsi - "İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı" üzrə:

3.1. "İxrac" hissəsinin "Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" abzası ləğv edilsin;

3.2. "İdxal" hissəsinin üçüncü abzasının "Malların adı" sütunundan "Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr," sözləri çıxarılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bir ay müddətində:

4.1.1. ixracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilən malların Siyahısı üzrə xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.1.2. bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan əlavənin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2024-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın*
**1 nömrəli əlavəsi**

## İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilən malların siyahısı

1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah, döyüş sursatı, onların layihələndirilməsi və istehsalı üçün avadanlıq, ehtiyat hissələr, həmçinin elmi-texniki məlumat, material və texnologiyalar (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə).

2. Barıt, partlayıcı maddələr və qurğular, partlayış vasitələri, tezalışan maddələr və pirotexniki məmulatlar.

3. Nüvə materialları, texnologiyaları, avadanlıqları və qurğuları, xüsusi qeyri-nüvə materialları.

4. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.

5. Qan, qan komponentləri və onlardan hazırlanan preparatlar.

6. Emal edilməmiş almaz (ixracına münasibətdə).

7. İonlaşdırıcı şüa mənbələri, o cümlədən radioaktiv maddələr (radioaktiv tullantılar da daxil olmaqla), belə mənbələrin və maddələrin istehsalı üçün nəzərdə tutulan avadanlıq, təsərrüfat-məişət və tibbi əhəmiyyətli aparatlar istisna olmaqla, şüa verən aparatlar.

**Qeyd:**

1. Bu Siyahı yivli və yivsiz idman, ov silahlarının və ya hədəfə atəş açmaq üçün digər silahların, kombinasiya edilmiş yivli və yivsiz silahların, onların hissə və ləvazimatlarının, patronlarının, pnevmatik silahlar üçün gülləciklərin (yalnız ov üçün nəzərdə tutulan barıt, döyüş sursatı istisna olmaqla, yalnız ov və idman üçün nəzərdə tutulan mallar) idxalına və ixracına şamil edilmir və göstərilən malların (əşyaların) idxalı və ixracı Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"na uyğun olaraq tənzimlənir.

2. Bu Siyahıda və bu Siyahının "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən mallar üzrə xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodları, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

# Nazirlər Kabinetində 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri müzakirə olunub

**Sentyabrın 24-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilmiş hökumətin iclasında 2025-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub.**



Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən Baş nazir Əli Əsədov "Büdcə sistemi haqqında" qanuna müvafiq olaraq 2025-ci il dövlət və icmal büdcə layihələrinin, həmçinin növbəti üç il üçün icmal büdcənin göstəricilərinin, sosial-iqtisadi inkişaf proqnozlarının Nazirlər Kabinetinə təqdim edildiyini deyib.

Baş nazir qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, regional və beynəlxalq müstəvidə uğurlu addımları yeni reallıqlar yaradıb və bu reallıqlar 2025-2028-ci illəri əhatə edən növbəti ortamüddətli dövrdə Azərbaycanın yeni inkişaf mərhələsindəki strateji baxışını şərtləndirib.

Cari ilin Vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə əlamətdar olduğunu vurğulayan Əli Əsədov Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində növbədənkənar prezident və parlament seçkilərinin keçirildiyini, onların nəticələrinin xalqımızın Heydər Əliyev yoluna sədaqətini, Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə inam və etimadını bir daha nümayiş etdirdiyini, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına birmənalı dəstəyinin növbəti ifadəsi olduğunu diqqətə çatdırıb.

O, Prezidentin sərəncamına əsasən, hər il sentyabrın 20-sinin ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd olunacağını deyib. Qeyd edib ki, bu sərəncam bu tarixi hadisənin əbədiləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

"Qlobal miqyasda artan geosiyasi gərginliklərə, beynəlxalq əmtəə bazarlarında volatil qiymətlərə, dünya ölkələrində borc və büdcə kəsirinin artmasına baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub. Cari ilin ötən dövrü ərzində əlverişli xarici mühit və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sının uğurlu icrası nəticəsində ölkədə iqtisadi fəallığın davam etməsi, o cümlədən qeyri-neft-qaz sektorunun bütün sahələrində müsbət artım templəri müşahidə olunmaqdadır" deyən Baş nazir qeyd edib ki, 8 ayda ümumi daxili məhsul 4,3 faiz artıb, o cümlədən qeyri-neft sektorunda 7,0 faiz artım olub. Qeyri-neft sənayesində isə 7,8 faiz artım qeydə alınıb. Hazırda ölkənin strateji valyuta ehtiyatları 73 milyard dolları ötüb. Bu göstərici cari ilin sonuna gözlənilən ÜDM-in 100 faizi deməkdir və xarici dövlət borcunu 14 dəfəyə yaxın üstələyir. Birbaşa xarici dövlət borcumuzun səviyyəsi aşağıdır. Sentyabrın 1-i tarixinə bu göstərici 5,3 milyard dollar olmaqla ÜDM-in 7,5 faizini təşkil edir. Dünya üzrə ərzaq məhsullarının qiymətlərinin nisbətən azalaraq sabitləşməsi və bunun idxal qiymətlərinə təsiri, valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiyanın aşağı səviyyədə olmasını şərtləndirib. O cümlədən tərəfimizdən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası antiinflyasiya tədbirlərinə öz töhfəsini verməkdədir, 2024-cü ilin 8 ayında orta illik inflyasiya 1,3 faiz, illik inflyasiya isə 3,5 faiz olub.

Baş nazir qeyd edib ki, ötən dövr ərzində müsbət makrofiskal göstəricilər, dünya enerji bazarlarında əlverişli qiymət, profisitli tədiyə balansı, dövlət büdcəsinə əlavə gəlir daxilolmaları nəticəsində 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılıb. Nəticədə büdcə gəlirləri 2,2 milyard manat, büdcə xərcləri isə təxminən 3.0 milyard manat artıb. Yenidən baxılmış büdcə ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair Dövlət Proqramının icrası, beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili üzrə zəruri olan bir sıra əlavə xərclərin maliyyələşdirilməsinə imkan yaradıb.

Diqqətə çatdırılıb ki, 2025-ci il və növbəti üç ili əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi mövcud xarici və daxili makroiqtisadi mühit, büdcə siyasətinin əsas istiqamət və hədəfləri, büdcə qaydasının hədəfləri və makroiqtisadi proqnozlar nəzərə alınmaqla hazırlanıb. Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasəti aşağıdakı əsas çağırışlar nəzərə alınmaqla müəyyən edilib:

- "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi;
- Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük qayıdışın təmin edilməsi;
- Ölkənin hərbi-müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi;
- NMR Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası;
- Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketi;
- Dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin olunması.

Daha sonra bir sıra ümumi məlumatları diqqətə çatdıran Əli Əsədov deyib: "2025-2028-ci illərdə makrofiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə və Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılmasına əsaslanaraq hazırlanıb. Növbəti ilin büdcə hesablamalarında neftin qiyməti 70 dollar götürülüb. 2025-ci ildə dövlət büdcəsinin gəlirləri 36 milyard 616 milyon manat, xərcləri isə 39 milyard 667 milyon manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-yə nisbəti 2,4 faizdir. Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz, qeyri-neft sektoru üzrə 4,9 faizlik real artım tempi proqnozlaşdırılır. Ortamüddətli dövrdə isə qeyri-neft sektoru üzrə ÜDM-in artım tempi 5 faiz nəzərdə tutulur. Ortamüddətli perspektivdə neft-qaz sektorunda hasilatın azalması ilə artım tempinin zəifləməsi fonunda qeyri-neft iqtisadiyyatının inkişafı əsas hədəflərdən biridir".

Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın artan iqtisadi imkanlarının əhalinin sosial müdafiəsinin və rifah səviyyəsinin təmin edilməsinə də mühüm töhfələr verdiyini vurğulayan Baş nazir qeyd edib ki, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Bütövlükdə bütün istiqamətlər üzrə sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edir. 2025-ci ildə əməkhaqqı və sosial ödənişlərdə yeni artımlar 2 milyondan artıq vətəndaşı əhatə edəcək. Müasir innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha böyük vəsait nəzərdə tutulub. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 17 faizini təşkil edir.

İşğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın birbaşa iştirakı və rəhbərliyi ilə geniş bərpaquruculuq işlərinin sürətlə həyata keçirildiyini vurğulayan Ə.Əsədov bu məqsədlər üçün indiyədək dövlət büdcəsindən 17,5 milyard manata yaxın vəsait ayrıldığını, 2025-ci ildə daha 4 milyard manat vəsaitin ayrılmasının nəzərdə tutulduğunu bildirib. Deyib ki, Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi davamlı şəkildə həyata keçirilir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini xatırladan Ə.Əsədov bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu vurğulayıb, gələn il iqlim dəyişikliyi üzrə ayrılmış büdcə vəsaitləri də daxil olmaqla bütövlükdə "yaşıl büdcə" xərclərində 16 faizdən çox artımın nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Baş nazir Azərbaycanın dünya miqyasında siyasi nüfuzunun artdığını, Avrasiyanın mühüm nəqliyyat və logistika qovşağı, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi statusunun möhkəmləndiyini, beynəlxalq nəqliyyat dəhlizlərinin, xüsusilə də Orta və "Şimal-Cənub" dəhlizlərinin inkişafı üçün tərəfdaş ölkələrlə davamlı olaraq birgə səylər göstərdiyini vurğulayıb.

Sonra maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri haqqında", iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında", əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "2025-ci il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri" mövzularında məruzə ediblər.

Müzakirəyə yekun vuran Baş nazir Əli Əsədov qarşıda duran əsas vəzifələri elan edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumət qarşısında qoyulan bütün vəzifə və tapşırıqların vaxtında, yüksək keyfiyyətlə və tam şəkildə icra olunacağına əminliyini ifadə edib.

Qeyd edək ki, büdcə zərfinə daxil olan sənəd və məlumatlar Azərbaycan Prezidentinə təqdim olunacaq.

# Bakıda "ADEX-2024" və "Securex Caspian" sərgiləri işə başlayıb





**Sentyabrın 24-də regionda müdafiə sənayesinə həsr edilmiş ən nəhəng tədbir olan "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşkilatçılığı və "Caspian Event Organisers" şirkətinin təşkilati dəstəyi ilə "Bakı Ekspo Mərkəzi"ndə üç gün davam edəcək tədbirin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Azərbaycandakı diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, xarici ölkələrin nümayəndə heyətləri, digər əlaqədar qurumların nümayəndələri iştirak ediblər.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev Azərbaycan Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına məktubunu oxuyub.

Sonra sərginin iştirakçıları və qonaqları VIP turda iştirak ediblər.

Vurğulamaq lazımdır ki, bu genişmiqyaslı tədbir regionun ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişidir.

2024-cü ildə "ADEX" və "Securex Caspian" sərgilərinin miqyası daha da genişlənərək, əvvəlki illərlə nisbətdə ekspozisiyada artım nümayiş etdirir. Belə ki, sərgilər bu il artıq "Bakı Ekspo Mərkəzi"nin yeni istifadəyə verilmiş 4-cü zalı da daxil olmaqla bütün qapalı, eləcə də açıq sahəsini əhatə edir.

Sərgilərdə 40 ölkədən 218-dək şirkət iştirak edir. İştirakçı ölkələr Azərbaycanla yanaşı, ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Slovakiya, Türkiyə, Ukrayna və digərləridir. Builki sərgilər iştirakçıların ümumi sayının 34 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Macarıstan, Qətər, Sinqapur və Slovakiya 2022-ci il ilə müqayisədə sərgilərin yeni iştirakçılarıdır.

On dörd ölkə isə milli pavilyonla təmsil olunur. Belə ki, Azərbaycan, Belarus, Çexiya, Çin, İtaliya, İsrail, Macarıstan, Pakistan, Qətər, Rusiya, Serbiya, Slovakiya, Türkiyə və Ukrayna sərgilərdə milli pavilyonla iştirak edirlər. 2022-ci il ilə müqayisədə iştirakçıların sayında 32 faiz artım qeydə alınıb.

Ənənəvi olaraq, "ADEX" müxtəlif ölkələrdən nüfuzlu qonaqları və nümayəndə heyətlərini cəlb edir. Sərgiyə dünyanın 27 ölkəsindən 53 yüksək səviyyəli rəsmi nümayəndə heyəti qatılıb. Azərbaycan da daxil olmaqla, Belarusu, Bəhreyni, Burkina-Fasonu, Əlcəzairi, Gürcüstanı, İordaniyanı, İsraili, İtaliyanı, Küveyti, Malayziyanı, Mərakeşi, Qazaxıstanı, Qırğız Respublikasını, Özbəkistanı, Pakistanı, Rumıniyanı, Rusiya Federasiyasını, Səudiyyə Ərəbistanını, Serbiyanı, Slovakiyanı, Somalini, Türkiyəni, Türkmənistanı, Ukraynanı, Xorvatiyanı və Vyetnamı təmsil edən bu nümayəndə heyətləri tərkibində 300-dən çox rəsmi nümayəndə sərgini ziyarət edir.

"ADEX" sərgisinin sponsorları Türkiyənin "Baykar", İsrailin "Israel Aerospace Industries" və Qətərin "Barzan Holdings" şirkətləridir.

Pavilyonun tərkibində 4 stend fəaliyyət göstərir. "Bakı Ekspo Mərkəzi"nin qapalı ərazisində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 85 kvadratmetr sahəni əhatə edən bir stendi, nazirliyin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin isə qapalı məkanda 256 kvadratmetr və 360 kvadratmetr sahələri əhatə edən iki, açıq ərazidə 500 kvadratmetr sahəni əhatə edən bir stendi quraşdırılıb.

"ADEX" sərgisi ilə paralel olaraq təşkil edilən "Securex Caspian" sərgisində hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modelləri nümayiş etdirilir.

"Securex Caspian" sərgisinə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və ilk dəfə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti tərəfindən dəstək göstərilir. 2024-cü ildə ilk dəfə olaraq, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti "Securex Caspian" sərgisində stendlə iştirak edir.

Sərgilər sentyabrın 26-da yekunlaşacaq.

## ƏRDOĞAN: "Azərbaycan-Ermənistan sülh prosesində qeydə alınan irəliləyişlər Türkiyə-Ermənistan normallaşma prosesinə də müsbət təsir edəcək"



**"Azərbaycan və Ermənistan arasında sülh prosesini dəstəkləyir, danışıqların ən qısa vaxtda sevindirici xəbərlərlə nəticələnməsini arzulayırıq".**

AZƏRTAC-ın məlumatına görə, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasında çıxışı zamanı deyib.

"Azərbaycan-Ermənistan sülh prosesində qeydə alınan irəliləyişlər Türkiyə-Ermənistan normallaşma prosesinə də müsbət təsir edəcək", - deyə Türkiyə Prezidenti bildirib.

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib



**Sentyabrın 24-də "Bakı Ekspo Mərkəzi"ndə keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerlə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, geniş tərkibdə keçirilən görüşdə Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə, müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak, Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Ercüment Tatlıoğlu, Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlu, Hərbi Hava Qüvvələri komandanı ordu generalı Ziya Cemal Kadıoğlu, Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahit Bağcı və digər vəzifəli şəxslər iştirak ediblər.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslandığı bildirilib. Ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahəsində əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin inkişaf perspektivləri, regional təhlükəsizlik və digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Sonra general-polkovnik Z.Həsənov Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Türkiyənin bir neçə aparıcı hərbi sənaye şirkət rəhbərinin də iştirak etdiyi görüşdə birgə hərbi-texniki layihələrin hər iki qardaş ölkənin müdafiə qüdrətini daha da artıracağına əminlik ifadə olunub, əməkdaşlığın yeni perspektivləri müzakirə edilib.

Görüşlərdə həmçinin texnoloji innovasiyaların tətbiqi ilə birgə istehsalatın artırılmasının vacibliyi xüsusi qeyd olunub. "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi yüksək qiymətləndirilib.

Hər iki görüşün sonunda hərbi-texniki əməkdaşlığa dair bir neçə müqavilə imzalanıb.

## Azərbaycan və Qazaxıstan Müdafiə nazirlikləri arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb



**"Bakı Ekspo Mərkəzi"ndə keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi davam edir.**

Sentyabrın 24-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov sərgidə iştirak məqsədi ilə ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu xüsusi qeyd olunub, müdafiə sahəsində əməkdaşlığın hər iki ordunun daha da güclənməsinə xidmət etdiyi vurğulanıb.

"Bakı Ekspo Mərkəzi"ndə keçirilən görüşdə Azərbaycan ilə Qazaxıstan arasında hərbi əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün yekununda Azərbaycan və Qazaxıstan Müdafiə nazirlikləri arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı və Milli Müdafiə universitetləri arasında Memorandum imzalanıb.

# Dövlət suverenliyi milli sərvətimizdir





# Bayramlar bayramı

## Təməli Qurtuluş Günü ilə qoyulan Dövlət Suverenliyi Günü

**Ötən həftə - 20 sentyabr 2024-cü ildə ilk dəfə ölkəmizdə Dövlət Suverenliyi Günü qeyd olundu!**

Bundan bir gün əvvəl - 19 sentyabrda Azərbaycan Prezidenti İlham Əliyev müvafiq sərəncam imzalamışdı.

*Vədəsində verilən, xalqımızın sevinc və razılıqla qarşıladığı bu qərar son illərdə şahidi olduğumuz bir sıra tarixi və şərəfli məqamları özündə ehtiva edir.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin bizə yenicə bəxş etdiyi yeni bir bayramın - Dövlət Suverenliyi Gününün mahiyyətinə varsaq, onu bir cümlə ilə belə ifadə etmək olar:**

**Azərbaycanın torpaq itkisi dövrü başa çatıb, indi geri qaytarılmış ərazilərin quruculuq, inkişaf dövrüdür!**

Söhbət ən yaxın tariximizdən və gözlərimiz qarşısında baş verən hadisələrin böyük əksəriyyətindən gedir!

❖ ❖ ❖

*Əvvəla,* Prezident İlham Əliyevə Azərbaycan xalqına belə xoşbəxtliyi yaşatdığına, şəhidlərimizin qisasını döyüş meydanında aldığına və bizi qalib millətə, qalib xalqa, qalib dövlətə çevirdiyinə görə sonsuz təşəkkür və minnətdarlığımızı bildiririk!

*İkincisi,* qanı axan Qarabağ yarasının, ölkəmizin bədənində xərçəngə çevrilmiş separatizm xəstəliyinin necə sağaldığını göstərmək üçün bir qədər geriyə qayıtmaq istəyirik.

*"Qarabağ problemi" çar Rusiyası tərəfindən hazırlanan və dündakı "xristian təəssübkeşləri" tərəfindən müdafiə olunan qəddar və məkrli bir "layihə" idi.*

*Bu "layihə" ilk növbədə Türkiyəyə, türk dövlətlərinin birliyinə qarşı düşünülmüş və Azərbaycan ərazisində icrasına başlanmışdı.*

**Hər dəfə dünyada çalxalanma, dünya düzənində ciddi dəyişikliklər baş verəndə işə salınırdı.**

*Birinci Cahan müharibəsindən sonra dünyada yeni ictimai-iqtisadi formasiya, kommunizm ideologiyasına əsaslanan qırmızı imperiya - SSRİ yarananda bu məqamdan istifadə edərək Türkiyədən xəyanətlərinə görə qovulan erməniləri Azərbaycan torpaqlarında yerləşdirərək Ermənistan adlı forpost dövlət yaratdılar.*

**Bununla da Azərbaycan torpaqlarının hissə-hissə ermənilərə verilməsi prosesinin başlanğıcı qoyuldu.**

İkinci dəfə böyük ərazi qoparılmasına isə qırmızı imperiyanın çöküşü zamanı - ötən əsrin 90-cı illərində başlanıldı.

❖ ❖ ❖

Düşmən xain niyyətlərini həyata keçirməkdən ötrü əlverişli məqam seçmişdi.

"Yenidənqurma" adlı oyunbazlıqla meydana atılan və bu yolla SSRİ-ni dağılmaqdan xilas etməyə çalışan M.Qorbaçov ermənipərəst mövqeyi tutduğundan bu xalqın separatizm əməllərinə göz yumurdu.

*Hətta Moskva keçmiş DQMV-də "xüsusi idarəetmə komitəsi" adlı məkrli bir qurum yaratmaqla vilayəti Azərbaycanın tabeliyindən çıxartdı.*

Bununla da yanan ocağa neft tökmüş oldu!

**Məsələni qəlizləşdirən məqamlardan biri o idi ki, həmin dövr Azərbaycan xalqı həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən ayrı düşmüşdü!**

*Azərbaycana başçılıq edənlərin heç biri nə dünya siyasətindən, nə dünyada gedən proseslərdən baş çıxarırdı, nə də sabah nələrin olacağını bilirdi.*

Odur ki, nə manqurt Vəzirov, nə imperiyanın sadiq qulluqçusu Mütəllibov, nə də **şəxsi maraqlarını hər şeydən üstün tutan səriştəsiz, təcrübəsiz və bacarıqsız AXC-Müsavat cütlüyü sürətlə döyüşkən ordu yaradaraq torpaqların müdafiəsini təmin etmək qabiliyyətində idilər.**

* Beləcə, Azərbaycan arxalı düşmən qarşısında əliyalın qaldı.

* Beləcə, Azərbaycan torpaqları müdafiəsiz qoyuldu.

* Beləcə, düşmən niyyətlər, məkrli planlar baş tutdu, ölkə ərazisi kəndbəkənd, şəhərbəşəhər işğal olundu.

❖ ❖ ❖

**1993-cü ilin iyununda xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıtması insanlarda böyük inam, ruh yüksəkliyi doğurdu!**



*Lakin, necə deyərlər, iş-işdən keçmiş, yüz minlərlə insan qaçqına və məcburi köçkünə çevrilmişdi.*

Yeni ərazilərin işğalının qarşısını almaq, ordu qurmaq, çadır şəhərciklərindəki binəva insanlara arxa durub kömək etmək üçün nə vəsait vardı, nə də imkan.

**Lakin Ulu Öndər Heydər Əliyev böyük qətiyyət və əzmlə işə başladı, bir-birinin ardınca zəruri addımlar atdı:**

* Müharibə bölgəsində davamlı atəşkəsə nail oldu, xaos və anarxiyaya son qoydu, qanunsuz silahlı birləşmələri ləğv etdi, əhalidəki külli miqdarda silah-sursatı müsadirə etdi, ölkədə möhkəm və dönməz sabitlik yaratdı!

* İki dəfə dövlət çevrilişinə cəhdin qarşısını aldı və Azərbaycanda hakimiyyətə yalnız seçkilərlə, demokratik yolla gəlməyin təməlini qoydu!

* "Əsrin müqaviləsi" adlanan neft kontraktını imzalayaraq ölkənin gələcək iqtisadi inkişafını şərtləndirdi.

* Ordu quruculuğunun təməlini, torpaqların işğaldan azad edilməsinin əsasını yaratdı.

*1994-cü ilin yanvarında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən hücum əməliyyatında Horadiz qəsəbəsi daxil 20 yaşayış məntəqəsi işğaldan azad edildi!*

**Əcəl Ulu Öndərə bundan artığına imkan vermədi, ölkəni etibarlı əllərə, siyasi varisi İlham Əliyevə tapşıraraq əbədiyyətə qovuşdu.**

❖ ❖ ❖

**Prezident İlham Əliyevin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyü nəhəng işlərin özəyində işğal olunmuş ərazilərin azad edilməsi dayanırdı.**

Qısaca şəkildə qeyd edirik ki, cənab İlham Əliyev tarixən qısa müddətdə düşmənə qalib gələcək güclü dövlət və ordu yaratdı, beynəlxalq aləmdə yüksək nüfuz və dəstək qazandı!

*Torpaqların azad edilməsi üçün uğurlu vaxt da müəyyən olundu:*

* Bu müharibədə Azərbaycan xalqı "dəmir yumruğ"a çevrilərək Ali Baş Komandanın ətrafında sıx birləşdi, mümkün olmayanları belə, gerçəyə çevirdi!

* 44 gün ərzində 30 illik işğala son qoyuldu!

* Düşmən ordusu darmadağın edilərək diz çökdürüldü, ermənilər kapitulyasiya aktını imzalamağa məcbur oldular!

* Rusiyanın vasitəçiliyi və zəmanəti ilə müharibənin sülh yolu ilə yekunlaşması barədə üçtərəfli Bəyanat imzalandı!

❖ ❖ ❖

**Sonrakı hadisələr, Ermənistanın dostlarının və havadarlarının atdıqları addımlar göstərdi ki, İlham Əliyevin keçmiş DQMV-nin ərazisinin hərbi yolla deyil, danışıqlar vasitəsilə azad edilməsinə razılıq verməsi çox vacib və uzaqgörən addım idi.**

*Azərbaycan yalnız hərbi vasitələrdən istifadə etsəydi, sonda xoşagəlməz vəziyyətlər yaranardı, uğursuzluğa düçar olardıq.*

Ermənistan riyakar simasını növbəti dəfə göstərdi: üçtərəfli Bəyanatın bütün bəndlərinin icrasından boyun qaçırmağa, yubatmağa başladı.

Ən əsası, Qarabağdakı qanunsuz silahlı birləşmələri ərazimizdən çıxarmaq istəmədi, onlara yardım və dəstəyi davam etdirdi.

Laçın dəhlizinin RSK-nin nəzarəti altında olmasından və sülhməramlıların vəzifə borclarını yerinə yetirməmələrindən istifadə edərək xunta rejiminə maliyyə yardımı, silah-sursat, mina və canlı qüvvə göndərilməsini davam etdirdi, separatçıları tam dəstəklədi.

Bununla da "dəmir yumruğ"un ikinci dəfə işə salınmasına ehtiyac yarandı!

**Böyük ustalıqla hazırlanan və məharətlə həyata keçirilən əməliyyat nəticəsində Həkəri körpüsü üzərində Azərbaycana məxsus nəzarət-buraxılış məntəqəsi yaradılaraq Laçın dəhlizi birdəfəlik qapadıldı!**

*Ermənistan ilə Qarabağdakı separatçıların birbaşa və sərbəst əlaqələrinə son qoyuldu!*

Azərbaycan ərazisinə qanunsuz silah-sursat daşınması dayandırıldı.

**Ən əsası, ölkəmizin ərazi bütövlüyü bərpa olunaraq ilk dəfə Azərbaycanın öz dövlət sərhədlərinə tam nəzarəti təmin edildi.**

❖ ❖ ❖

Düşmən bununla da ağıllanmadı.

Havadarlarının köməyinə və dəstəyinə güvənərək sərhədlərimizin atəşə tutulmasını, ərazilərimizin yenidən minalanmasını, separatçıların dəstəklənməsini dayanmadan davam etdirdi.

*Hətta iş o yerə çatdı ki, qondarma qurum yenidən "prezident seçkiləri" keçirdi və Ermənistanın baş naziri Paşinyan onları təbrik etdi.*

**Xidməti vəzifələrini yerinə yetirən 4 nəfər Azərbaycan polisinin minaya düşərək şəhid olması Müzəffər Ali Baş Komandan İlham Əliyevin səbrini daşırdı.**

*"Dəmir yumruğ"un üçüncü zərbəsindən sonra Azərbaycanın dövlət suverenliyi və Konstitusiya əsasları bərpa edildi!*

**23 saat çəkən antiterror əməliyyatı nəticəsində Qarabağ ərazisindəki bütün hərbi hissələr, döyüş mövqeləri darmadağın edildi, terrorçular və separatçılar ağ bayraq qaldıraraq təslim oldular!**

Düşmənə məxsus bütün silah-sursat, döyüş texnikası qənimət kimi ələ keçirildi.

"dqr"ın keçmiş "prezident"ləri, "parlament" başçıları, "nazir"ləri tutularaq Bakıya gətirildilər.

Azərbaycan qanunlarını və vətəndaşlığını qəbul etmək istəməyənlərin hamısı könüllü surətdə ölkəmizin ərazisini tərk etdi.

**Bir nəfərin burnu belə qanamadan "Qarabağ münaqişəsi"nə əbədilik son qoyuldu!**

**İlham Əliyevin təbirincə desək: "Separatçıların tabutuna son mismar vuruldu!"**

❖ ❖ ❖

**Antiterror əməliyyatı Zəfərin son nöqtəsi, ən uca zirvəsi oldu!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq ki, 30 illik işğala və erməni separatizminə son nöqtəni qoydu!**

*İndi isə bizə yeni bayram - Dövlət Suverenliyi Gününü bəxş etdiyinə görə sonsuz təşəkkürümüzü bildiririk!*

Bundan sonra hər il sentyabrın 20-də möhtəşəm qələbəmizi sevinclə qeyd edəcəyik!

Bəli, Baş Sərkərdəmizin və ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanda separatizmin toxumu kəsildi!

Azərbaycan dünyada ərazisində separatçı yaşamayan yeganə dövlətə çevrildi!

Azərbaycan həm də dünyada erməni diasporunun və onun əlaltılarının mövcud olmadığı yeganə ölkədir!

**30 ilə yaxın bir müddətdə soyqırımı günlərini, işğal günlərini, qara bayramları keçirirdik.**

*İndi isə zəfər günlərimizi, şəhər günlərimizi sevinc və fərəhlə qeyd edirik!*

* Bu gün dünya qarşısında alnımız açıqdır: torpaqlarımızı işğalçılardan təmizləmişik, ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi bərpa etmişik!

* Bu gün şəhidlərimiz qarşısındakı müqəddəs borcumuzu ləyaqətlə yerinə yetirmişik:

Onların qisasını almışıq, ocaq söndürənlərin ocaqlarını söndürmüşük!

**Artıq qalib və qürurlu millətik!**

**Belə bayramlar hamımıza yaraşır!**

**Bəxtiyar SADIQOV**

# Dövlət suverenliyi milli sərvətimizdir



# Tarixin ən güclü Azərbaycanı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfər bu gün də davam edir. Hər birimiz müxtəlif əlamətdar hadisələrdə, unudulmaz anlarda möhtəşəm qələbəmizin yeni təzahürlərini görürük. Sentyabrın 20-də Xankəndidəki Qarabağ Universitetinin açılışı, Azərbaycan Prezidentinin mərasimdə iştirakı, tələbələr önündəki tarixi nitqi də bunun parlaq bir örnəyidir. Düz bir il əvvəl qəhrəman ordumuzun dövlət suverenliyimizi tam bərpa etməsindən sonra yaradılmış Qarabağ Universitetinin fəaliyyəti, bu ali təhsil ocağında yüzlərlə istedadlı gəncimizin ilk dəfə tələbə həyatına qədəm qoyması Azərbaycanın sabaha inamının, gələcəyə elmin-təhsilin, intellektin gücü ilə hazırlığının ifadəsidir.**

## Vətənpərvərlik, inam, ədalət

Azərbaycan Prezidenti çıxışında tələbə gənclərə, onların şəxsində bütün insanlarımıza vətənpərvərlik ruhunu və daim inamlı olmağı təlqin etdi. Bunlar torpaqlarımızın işğaldan azad edilməsinə, ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin tam bərpasına addım-addım hazırlaşdığımız uzun illər ərzində bizi güclü edən əsas amillərdir. 44 günlük Vətən müharibəsi, ötən ilin sentyabrında aparılmış qısamüddətli antiterror əməliyyatı da göstərdi ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə edilmiş gənc nəsil olan yerdə heç bir qüvvə qarşımızda dura bilməz. İnam isə heç zaman qırılmamalıdır, fərdlər də, toplumlar da şəraitdən asılı olmayaraq inamlarını qorumalıdırlar. Hazırda Azərbaycanın işğaldan əziyyət çəkən, hələ də Fransa kimi ölkələrin müstəmləkə boyunduruğunda yaşamaq məcburiyyətində qalan xalqlarına aşıladığı əsas həqiqət də elə budur.

Bu gün Azərbaycan bütün dünyada ədalət uğrunda mübarizə aparır. İnsan ədalətin təmin olunduğunu görəndə özünü daha güclü, əmin, məmnun hiss edir. Çünki ədalət həyatımızda mizan yaradan ali dəyərdir. Ona görə həm ayrı-ayrı şəxslər, həm bütövlükdə xalqlar bu dəyərə çatmaq istəyir. Amma ədalət də öz-özünə təmin olunmur. Bu məqsədə nail olmaq üçün onun naminə çalışmaq lazım gəlir. "Ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır" - Azərbaycan Prezidenti qeyd etdi. Ölkə rəhbərimiz vurğuladı ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün Azərbaycan nümunəsi bir ümid işığıdır. Gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək - bunlar Azərbaycan dövlətinin əsas hədəfləridir.

## Birliyimizin gücü

Biz ərazi bütövlüyümüzə, suverenliyimizə birliyimizin gücü ilə nail olduq. 44 günlük Vətən müharibəsinin möhtəşəm tarixi, xalq-dövlət-ordu birliyi Azərbaycan cəmiyyətinin unikal monolitliyə malik olduğunu göstərdi. Birliyi daim qorumaq və gələcək nəsillərə ötürmək indi ən ümdə vəzifələrdən olmalıdır. Bunun üçün yeni nəslin milli ruhda tərbiyə alması, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiqlik göstərməsi, kənar təsirlərə düşməməsi, müxtəlif vədlərə aldanmaması mütləqdir. Nəzərə almaq lazımdır ki, bu təsir dairələrinin, bu vədləri verənlərin Azərbaycanla bağlı niyyətləri qətiyyən xoş deyil. Təxminən 30 ilə qədər çəkən işğal dövründə buna hər birimiz şahid olduq. Demək olar ki, bütün böyük güclərin torpaqlarımızın işğalının əbədi olması üçün çalışdıqlarını, yurdumuzun düşmən tapdağından azad edilməsini, ərazi bütövlüyünə, suverenliyinə nail olaraq davamlı inkişafa yönəlməsini istəmədiklərini gördük. Bu da aydındır. Onların niyyəti Azərbaycanı daim təzyiq altında saxlamaq, işğal faktından təsir vasitəsi kimi istifadə etmək və nəticə etibarilə bizi bu vəziyyətlə barışdırmaq, öz maraqlarını təmin etmək idi.

Bu mənada Azərbaycan, əslində, azadlıq müharibəsi aparırdı və bu müharibə torpaqlarımızın düşməndən xilası ilə yanaşı, həm də ikili standartlara, riyakarlığa, islamofobiyaya və xalqımıza göstərilən düşmən münasibətə qarşı idi.

## Ailə və müəllim tərbiyəsi

Azərbaycan Prezidenti Qarabağ Universitetinin tələbələri ilə görüşdəki çıxışında tərbiyənin iki əsas mənbəyi olan ailə və müəllim tərbiyəsinin önəmini xüsusi vurğulayaraq qeyd etdi ki, xoşbəxtlikdən Azərbaycanda ailə dəyərləri üstün tutulur və həmişə belə olmalıdır. Bunu xalqımızın ənənələri diktə edir. Eyni zamanda bəzi Qərb ölkələrində ailə dəyərlərinin tamamilə eybəcər formaya düşməsi göz önündədir və bu, hər birimizdə haqlı olaraq ikrah hissi doğurur.

Dövlətimizin başçısı ailə dəyərlərinin, ailə tərbiyəsinin birinci növbədə qorunmalı olduğunu bildirərək diqqəti müəllim tərbiyəsinə də yönəltdi. Müəllimlərin uşaqların, gənclərin biliklərinin artırılması, eyni zamanda onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işlədiklərini diqqətə çatdırdı. İkinci Qarabağ müharibəsinin şanlı tarixi, heç vaxt Qarabağı görməyən gənclərin torpaqlarımız uğrunda ölümə belə getmələri, şəhidlik zirvəsinə ucalmaları bunun örnəyidir. Qarabağ Universitetindəkı çıxışında bu mövzuya geniş yer ayırması Azərbaycan Prezidentinin böyüməkdə olan nəslin tərbiyəsinə, ümumən cəmiyyətimizdə mənəvi dəyərlərin qorunmasına və inkişafına nə qədər mühüm önəm verdiyini göstərir.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, gələcəyə düzgün hazırlanması üçün tarixi həqiqətləri həssaslıqla öyrənmələri, bununla bağlı aydın fikrə malik olmaları da çox mühüm şərtdir. Azərbaycan torpaqlarının işğalına gətirib çıxaran, xalqımızın illərlə çəkdiyi məşəqqətlərə səbəb olan reallıqlar son əsrlərin tarixində öz əksini tapıb. Bu tarixi diqqətlə öyrənmək Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpası nailiyyətinin miqyasını dəqiq təsəvvür etməyə kömək göstərəcək. Çünki Azərbaycan Prezidenti İlham Əliyev böyük Zəfərimizlə təkcə Azərbaycan torpaqlarının azadlığına nail olmayıb, eyni zamanda əsrlərin problemini aradan qaldırıb. Bu qələbəmiz böyük imperiyaların regionda öz maraqlarını reallaşdırmaq üçün həyata keçirdikləri erməni layihəsini darmadağın edib.

## Tarixə baxış

Dövlət rəhbərimizin nitqində önəmli məqamlardan biri də tarixi faklara diqqət yönəltməsi idi. Azərbaycan torpaqlarının işğalı XIX əsrin əvvəlində bağlanmış üç müqavilədən - "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələrindən başlanır. Bu müqavilələr faktiki olaraq sonrakı işğal üçün zəmin hazırladı. Belə ki, həmin müqavilələrin imzalandığı tarixə qədər heç vaxt Qarabağ torpağında yaşamamış ermənilər İrandan və Şərqi Anadoludan kütləvi surətdə bu əraziyə köçürüldü. Beləliklə, Azərbaycanın gələcək bəlalarının əsası qoyuldu. Ermənistan və erməni alimlərinin hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışmalarına, öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmalarına rəğmən tarix tarixdir. Onu sona qədər ört-basdır etmək mümkün deyil.

XX əsrin əvvəlində xalqımıza qarşı növbəti düşmənçilik addımlarının atılması, 1920-ci ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan bir neçə ay sonra Qərbi Zəngəzurun Azərbaycandan qoparılması, ardınca 1923-cü ildə heç bir əsas olmadan Azərbaycanın tərkibində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması, bu vilayətin tabeçiliyinin Sovet İttifaqının mərkəzinə bağlanması da yurd yerlərimizin faktiki işğalı üçün həyata keçirilən planlı işin bir hissəsi idi.

Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövrünə qədər Qarabağda kütləvi ermənləşdirmə prosesi davam etdirilmişdir. Yalnız Ulu Öndərin sayəsində bu vəziyyət dəyişdi. Qarabağda sabitlik yarandı, separatçılar baş qaldırmağa cəsarət göstərmədilər. O illərdə Azərbaycanın başqa bölgələri ilə daha sıx kommunikasiya üçün Xankəndiyə dəmir yolu xətti çəkildi, böyük infrastruktur layihələri quruldu, Sərsəng, Suqovuşan su anbarları tikildi, bir neçə müəssisə yaradıldı. Ölkənin müxtəlif bölgələrindən çalışmaq üçün buraya gələn soydaşlarımızın hesabına keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə azərbaycanlıların sayı tədricən 9 faizdən 30 faizə qədər yüksəldi. Ulu Öndər Heydər Əliyev keçmiş Sovet İttifaqı rəhbərliyindəki ali vəzifələrindən istefaya göndərildikdən cəmi iki həftə sonra Qarabağdakı erməni separatçılarının və onların havadarlarının hərəkətə keçmələri də tarixi reallıqdır. Prezident İlham Əliyevin nitqində bu fikirlərə daha geniş yer verildi.

Ümummilli Liderin istefasından az sonra başabəla sovet iqtisadçısı, erməni millətindən olan akademik A.Aqambekyanın Fransanın "Humanite" qəzetində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Azərbaycandan çıxarılıb Ermənistana birləşdirilməsini iqtisadi cəhətdən "əsaslandıran" məqaləsi ilə separatçılar yaramaz əməllərini həyata keçirmək üçün aqressivcəsinə fəallaşdılar. Xankəndidə və Ermənistanda Azərbaycana qarşı işğal hərəkatı başlandı. Qarşıya vəzifə qoyuldu ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Əfsuslar olsun ki, Azərbaycanın ozamankı rəhbərliyinin zəifliyi, bəzi hallarda isə açıq-aşkar xəyanəti, daha sonra silahlı çevriliş yolu ilə hakimiyyətə gələn Xalq Cəbhəsinin satqınlığı da ermənilərin yolunu açdı. Onlar bir çox şəhər və kəndlərimizdən, o cümlədən Xankəndidən soydaşlarımızı didərgin saldılar. 1992-ci ilin fevralında Xocalıda azərbaycanlılara qarşı böyük bəşəri cinayət - Xocalı soyqırımını törətdilər. 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər düşmən tapdağı altına düşdü. Digər rayonlarımızın da işğalına, bir milyona yaxın soydaşımızın məcburi köçkün vəziyyətinə düşməsinə, illərlə ağır məhrumiyyətlər çəkməsinə zəmin yarandı. "Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax bu idi bizim tariximiz" - Azərbaycan Prezidenti nitqində bunları xüsusi vurğuladı.

## Hər bir addım əvvəlki addımın məntiqi davamı idi

1993-cü ilin iyununda ölkənin o təlatümlü günlərində əgər Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycan dövlətinin hətta parçalanaraq dünya xəritəsindən silinməsi ehtimalı labüd idi. Ümummilli Liderin ölkənin gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürməsi tarixin axarını dəyişdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf proseslərini uğurla davam etdirərək Azərbaycanı tarixdəki ən güclü çağlarına yetirən cənab İlham Əliyev xalqımızı böyük Zəfərə - ən böyük hədəfinə çatdırdı.

"Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr Dövlət Suverenliyi Günü idi".

Artıq yaşadığımız bu günlər xəyal deyil, reallıqdır, təqvimdə öz əlamətdar yerini tutmuş qürur günümüzdür. Bu günün işığında Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur, dirçəlir. Soydaşlarımız öz el-obalarına qayıdırlar, bu əzəli-əbədi yurdlarımızda yaradılan yeni təhsil müəssisələrində, o cümlədən Qarabağ Universitetində gənclərimiz sabaha doğru inamlı addımlarını atırlar. Onların gələcəyi daha xoşbəxt, daha əmin olacaq. Çünki bu gənclərimiz tarixin ən güclü Azərbaycanının vətəndaşlarıdırlar.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# 2 əsrlik arzunu gerçəkləşdirən 2 gün

**70 il mövcud olmuş SSRİ-nin dağılması Azərbaycana müstəqilliyini bərpa etmək imkanı qazandırdı. Amma bu zaman ovaxtkı mərkəzi hakimiyyətin "xeyir-duası" ilə Ermənistanın ərazi iddiaları ilə qarşılaşdıq. Ermənistandakı və Qarabağdakı erməni separatçılarına dəstək birbaşa SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov tərəfindən verildiyindən həmin iddialar tezliklə silahlı qarşıdurmaya, ardınca isə əsl müharibəyə çevrildi.**

SSRİ-nin dağılmasından sonra isə bu məsələ beynəlmiləlləşdi. ATƏT-in Minsk qrupu deyilən qondarma vasitəçilər üzərinə götürdüyü funksiyasını yerinə yetirmək əvəzinə, işğalçı ilə işğala məruz qalanı tərəzinin bir gözünə qoyub mənasız fəaliyyət göstərməyə başladı. Heç bir əhəmiyyəti olmayan "vasitəçilik" 30 il Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında qalması ilə davam etdi. Bu müddət ərzində BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması barədə 4 qətnamə qəbul etdi. Ancaq həmin sənədlər kağız üzərində qaldı. Erməni separatçıları beynəlxalq güclər tərəfindən təzyiq əvəzinə dəstək gördükləri üçün daha da qudurdular. Düşmən ölkənin yüksəksəviyyəli dövlət adamları daha tez-tez "biz bu torpaqları qanla almışıq, danışıqlar yolu ilə qaytara bilmərik" kimi bəyanatlar səsləndirməyə başladılar.

Belə vəziyyət 2020-ci il sentyabrın 27-dək davam etdi və Azərbaycan həmin gün başlanan Vətən müharibəsində bizə təslimçilik təklif edənlərə nəyə qadir olduğumuzu nümayiş etdirdi. Dünyaya sübut etdik ki, biz torpaqlarımızı silah gücünə azad etmək gücündəyik. Prezident İlham Əliyev 2 gün əvvəl Xankəndi şəhərində Qarabağ Universitetinin müəllim və tələbələri qarşısındakı çıxışında demişdir: "Bildiyiniz kimi, 44 gün ərzində şanlı ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik".

44 günlük Vətən müharibəsi tarixi Zəfərimizlə başa çatdı və biz düşməni təslim aktına qol çəkməyə məcbur etdik. Həmin bəyanata görə, Ermənistan tərəfi Qarabağdakı qanunsuz silahlı qüvvələrini tərk-silah edib ərazimizdən çıxarmalı idi. Amma Ermənistan bu dəfə də sözünə və imzasına hörmət qoymadı. Əksinə, Qarabağdakı erməni quldurlarını silahlandırıb təxribat törətməyə cəhd etdi. Onlar yeni müdafiə sədləri yaradır, qondarma qurumun rəhbərləri müstəqillikdən dəm vurur, özlərinə "prezident" seçirdilər.

Ötən il sentyabrın 19-da baş verən sonuncu təxribatları isə səbir kasamızı daşdırdı. Ali Baş Komandan "qara yara"nı birdəfəlik kəsib atmaq üçün Azərbaycan Ordusuna əmr verdi. Əmr cəmi 23 saata icra olundu. Ordumuzun sarsıdıcı zərbəsindən sonra düşmən ağ bayraq qaldırdı. Azərbaycan bununla kifayətlənməyib qondarma qurumdan özünü buraxmağı, yəni ləğv etməyi tələb etdi. Separatçıların bu tələbə əməl etməkdən başqa əlacları yox idi.

Antiterror əməliyyatının keçirildiyi 19-20 sentyabr Azərbaycan tarixinə dövlət suverenliyimizin tam bərpa olunduğu gün kimi düşdü. Dövlət başçısı bu tarixi günü əbədiləşdirmək üçün 19 sentyabr 2024-cü il tarixli "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsdiq edilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda deyilir: "2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Dövlət suverenliyi milli sərvətimizdir



## Prezidentdən növbəti xoş müjdə

### Gələn il minimum əməkhaqqı və minimum pensiya yenə artacaq

**Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasət dövlətin ümumi siyasətinin ayrılmaz hissəsidir. Vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün yürüdülən bu siyasət birbaşa iqtisadi inkişafla bağlıdır.**

Prezident İlham Əliyev dəfələrlə söylədiyi bu fikri yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində bir daha vurğuladı. İqtisadi sahədə göstəricilərin bu il də müsbət olduğunu bildirdi: "Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, - biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir".

Bunlar sadəcə olaraq qazanılan uğurların yalnız bir hissəsidir. Əlbəttə, görülən işlərdən bəhs edərkən ilk növbədə işğaldan azad olunmuş ərazilərimizdə aparılan geniş bərpa-quruculuq tədbirləri yada düşür. Qarabağın və Şərqi Zəngəzurun bərpası qarşıda dayanan önəmli vəzifədir. Təsadüfi deyil ki, qələbə qazanılan vaxtdan bu ilin sonuna qədər xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edir. Bu vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinin icrasına xərclənib. Bununla yanaşı, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və artıq səkkiz mindən çox keçmiş köçkün Qarabağda və Şərqi Zəngəzurda yerləşib. Onların sayı aydan-aya daha da artır.

Regionda infrastruktur layihələri geniş vüsət alıb. Belə ki, artıq 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin sırasında 45 tunelin tikintisi yer alır və onların ümumi uzunluğu 70 kilometrdir. Eləcə də 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilib.

Başlıca işlərdən biri də enerji potensialının gücləndirilməsidir. Bu istiqamətdə də təqdirəlayiq tədbirlər görülüb. Belə ki, üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istismara verilib və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər istifadəyə verilir. Mənfur düşmənin xarabalığa çevirdiyi yaşayış məntəqələrinin yerində yeni kəndlər, qəsəbələr salınır. Tarixi abidələr bərpa edilir. Erməni vandalları tərəfindən dağılmış yeddi məscid yenidən qurulub. Səkkiz məscidin inşası davam edir.

Dövlətimizin başçısı bu işlərin genişmiqyaslı olduğunu qeyd edərək demişdir: "Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları, - yəni bu coğrafiyada belə genişmiqyaslı işləri aparmaq, bir daha deyirəm, doğrudan da xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda texniki imkanlara malikdir. Kadr hazırlığı da yerindədir. Çünki bu işləri görmək - üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir. Yəni ölkəmizin potensialı budur. Biz buna hazırıq. Biz torpaqları azad edən kimi dərhal buna başlamışıq".

Təbii ki, bütün bu işləri görmək üçün iqtisadi imkanımız olmalıdır. Ölkəmiz bütün bunları öz hesabına gerçəkləşdirir. Füzuli rayonunda Özbəkistanın tikdiyi məktəbi və Qazaxıstanın inşa etdiyi uşaq yaradıcılıq mərkəzini, eləcə də hazırda Qırğızıstanın Ağdam rayonunda tikməkdə olduğu məktəbi nəzərə almasaq, bütün işləri öz hesabımıza, öz gücümüzlə görürük. Bu da bir daha göstərir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq, öz potensialımıza güvənməliyik.

Gələcək planları gerçəyə çevirmək üçün yenə də vacib şərt iqtisadi inkişafdır. O cümlədən vətəndaşların sosial rifahının yüksəldilməsi üçün də. İndiyə qədər bu sahədə atılan addımlara da məhz iqtisadi inkişaf imkan vermişdir. Belə ki, 2018-ci ildən indiyədək Azərbaycanda dörd sosial islahatlar paketi həyata keçirilib. Bunların məbləği 7 milyard manatdır və 4 milyon insanı əhatə edir. Son beş il ərzində ölkəmizdə minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artıb.

"Artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır.Yəni bu sosialyönümlü siyasət bir daha bizim ümumi siyasətimizi, niyyətimizi göstərir. Əlbəttə ki, gələcəkdə bu istiqamətdə siyasəti aparmaq üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir", - deyə Prezidentimiz bildirmişdir.

Bu gün ölkəmizdə məhz bu istiqamətdə əhəmiyyətli işlər görülür. Qarabağda və Şərqi Zəngəzurda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan "İstisu" zavodunun açılışı olub. Bütün bölgələrdə genişmiqyaslı işlər aparılır. Deməli, Azərbaycanın iqtisadi yüksəlişi davam edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Yeni dövrün inkişaf konsepsiyası açıqlandı

### Dövlət başçısının Milli Məclisdəki çıxışı deputatların beşillik fəaliyyəti üçün yol xəritəsi olacaqdır

**"VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında Prezident İlham Əliyevin tarixi çıxışı bütövlükdə regionun inkişaf konsepsiyasını əhatələməklə deputatlar üçün yaxın 5 il üzrə fəaliyyətin yol xəritəsi hesab olunmalıdır. Möhtərəm cənab Prezident özünün parlamentdəki tarixi çıxışında ölkə üçün prioritet sayılan, eyni zamanda regionun geosiyasi simasını müəyyən edəcək qətiyyətli mövqe ifadə etməklə həm də Azərbaycan Respublikasının Milli Məclisinin bu istiqamətdə üzərinə düşən vəzifələrin sərhədlərini müəyyənləşdirdi".**



"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, dövlət başçısı ölkə Konstitusiyasında ifadə olunduğu kimi, Azərbaycan bütün dünya xalqları ilə sülh və əmin-amanlıq şəraitində yaşamaq niyyətini bəyan etməklə bərabər, həm də ölkəmizə qarşı təcavüzkar niyyətlər güdən çoxsaylı qüvvələrin davranışlarına müvafiq olaraq hərbi potensialının gücləndirilməsini ən vacib istiqamət kimi bəyan edib: "Ötən dövr ərzində Azərbaycanda ordu quruculuğu və müdafiə sənayesinin inkişaf etdirilməsi istiqamətində inqilabi addımlar atılıb. Vətən müharibəsində və antiterror tədbirlərində əldə edilən nəticələr, o cümlədən getdikcə dərinləşən ziddiyyətlər fonunda geosiyasi zəmində Azərbaycanın hərbi-siyasi güc kimi artan nüfuzu fonunda bunu çox aydın formada görmək mümkündür. Prezident İlham Əliyevin nitqindən göründüyü kimi, qarşıdakı dövrdə də Azərbaycan üçün hərbi qüdrətinin artırılması prioritet olaraq qalacaq və hakimiyyətin vacib qolu qanunverici orqan kimi Milli Məclisin də üzərinə bununla bağlı səlahiyyətləri çərçivəsində ciddi işlər düşür".

Deputat deyib ki, dövlət başçısının ifadə etdiyi kimi, xüsusən büdcə müzakirələri zamanı parlamentin hökumətin hərbi büdcənin artırılması ilə bağlı mütəmadi verdiyi qərarlara davamlı dəstəyi çox vacibdir. Sirr deyil ki, ötən dövr ərzində Azərbaycanın hərbi büdcəsi daim artan tempdə inkişaf edib, hər ötən il bu dəyişiklik statistikada və real göstəricilərdə inikasını tapıb. Milli Məclis hökumətin bu təşəbbüsünə daim birmənalı şəkildə dəstək verib, üstəlik, deputatlar bu artımların əhatə dairəsinin daha da genişləndirilməsi təklifləri ilə çıxış ediblər. Ayrı-ayrı dövlətlərdə büdcə müzakirələrinin siyasi böhrana çevrildiyi bir zamanda Azərbaycanda hakimiyyətin qolları arasında digər məsələlərdə olduğu kimi, bu istiqamətdə də vahid mövqedən çıxış edilməsi milli həmrəyliyin nümunəsi olmaqla bərabər ordu quruculuğu və müdafiə sənayesinin inkişafına öz töhfəsini verib. Möhtərəm Prezidentin VII çağırış parlamentin ilk iclasında verdiyi bəyanatlar da məhz bu reallığın davamının təmin edilməsinin vacibliyini ehtiva edir.

B.Məhərrəmovun sözlərinə görə, müdafiə sənayesinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər fonunda bu sferada özəl sektorun rolunun artırılması istiqamətində tədbirlərə də qanunvericilik bazası çərçivəsində dəstək verilməsi vacibdir. Prezidentin cari situasiyadan məmnunluğu da onu göstərir ki, Azərbaycanda bu istiqamətdə də hakimiyyət qolları arasında çox ciddi uzlaşma var və ölkəmiz hərbi-siyasi güc mərkəzi kimi özünün təsdiqi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu birgəfəaliyyət nümunəsi formalaşdırıb.

Deputat vurğulayıb ki, dövlət başçısının çıxışının çox vacib istiqamətlərindən biri də milli təhlükəsizlik elementləri ilə bağlı olub. Xüsusən Azərbaycanın sərhəd təhlükəsizliyinin etibarlı təmini istiqamətində dövlətin müəyyən etdiyi konsepsiyasının özünü doğrultması fonunda ölkə rəhbərinin ali tribunadan verdiyi bəyanatlar, əslində, bu istiqamətdə gələcək fəaliyyətin konturlarının müəyyən olunması baxımından çox vacib əhəmiyyətə malikdir. Quru sərhədlərin bağlı qalması ilə əlaqədar bir sıra qüvvələrin manipulyasiyaları fonunda möhtərəm Prezidentin cari vəziyyəti cəmiyyətin diqqətinə çatdırması, xüsusən bu situasiya ilə Azərbaycanın əldə etdiyi dividendlər milli təhlükəsizliyin daha etibarlı formada təmini istiqamətində nəticələrin cəmiyyətə kommunikasiya olunması xüsusi qeyd edilməlidir.

B.Məhərrəmov deyib ki, Azərbaycanın xarici siyasət kursu, həmçinin milli mənəvi dəyərlərin qorunması, ideoloji sahədə fəaliyyətin gücləndirilməsi ilə bağlı Prezidentin çıxışında toxunduğu məqamlar, həmçinin bu istiqamətdə qanunverici orqanın fəaliyyətinin hərəkətverici qüvvəsi kimi çıxış edəcək: "Bu mənada əminliklə demək olar ki, VII çağırış Milli Məclisin ilk iclasında dövlət başçısının irəli sürdüyü tezislər, əslində, Azərbaycanın yeni dönəmdə inkişaf konsepsiyasının əsası, bütövlükdə regionun dayanıqlı təhlükəsizlik mühitinə qovuşması istiqamətinə aydın yol xəritəsi hesab olunmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışı xalqa verilən uğur hesabatı olmaqla yanaşı, həm də Azərbaycanın gələcək prioritetlərini özündə ehtiva edən yol xəritəsi idi. Dövlət başçısının görülən işlər və ölkə qarşısında duran vəzifələr haqqında proqram xarakterli çıxışı həm də tarixin ən qüdrətli Azərbaycanının əyani təsviri idi.**

## "İstənilən cavabı verməyə hazırıq"

### İlham Əliyev Ermənistana və havadarlarına xəbərdarlıq etdi

#### Hərbi gücümüzün artırılması prioritetdir

Dövlət başçısı mühüm məsələlərə toxundu, gələcək vəzifələr və hədəflərdən söz açdı, mühüm mesajlar verdi. Prezidentin ilk olaraq hərbi gücün artırılması ilə bağlı söz açması isə təsadüfi deyildi. Çünki Vətən müharibəsində, antiterror tədbirlərində də məhz hərbi gücümüz vasitəsilə işğalçını cəzalandırmışıq, torpaqlarımızı işğaldan və separatizmdən xilas etmişik.

Müharibə bitsə də, Ermənistanda revanşizm meyilləri bitməyib. Rəsmi İrəvan sülhlə bağlı ara-sıra açıqlamalar versə də, sülh prosesində səmimi olmadığı gün kimi ortadadır. Əgər səmimi olsaydı, fəaliyyətini dayandırmış Minsk qrupunun hüquqi ləğvi üçün təşəbbüslər göstərərdi. Lakin görünən odur ki, Ermənistan gələcəkdə revanşizm niyyətlərini gerçəkləşdirmək üçün zəmin yaratmağa çalışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq ancaq bir məqsədi güdə bilər ki, yenidən ölkəmizə qarşı ərazi iddiaları baş qaldırsın.

Ermənistanın sürətlə silahlanması da revanşizm niyyətlərindən irəli gəlir. Son zamanlar Fransadan və Hindistandan silah və hərbi texnikanın alınması da bu məkrə xidmət edir. Təbii ki, belə bir şəraitdə Azərbaycan dövləti hərbi gücünün daha da artırılmasını prioritet vəzifə kimi müəyyən edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, birnömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır: "Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir".

#### Silahlı Qüvvələrimiz 4 il əvvəlkindən qat-qat güclüdür

Ümumiyyətlə, tarixi təcrübəmiz göstərir ki, Azərbaycan hələ Vətən müharibəsinə qədər hərbi gücünü artırmaqla öz milli hədəflərinə doğru olduqca müdrik və düzgün addımlar atıb. Çünki bu gün beynəlxalq hüquq demək olar ki, işləkliyini itirib. Prezident İlham Əliyevin çox düzgün və haqlı olaraq qeyd etdiyi kimi, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər.

Vətən müharibəsinə qədər Azərbaycan beynəlxalq hüququn prinsiplərinə söykənərək torpaqlarını işğaldan azad etməyə çalışsa da, Ermənistanın arxasında duran siyasi mərkəzlər buna imkan vermədilər, beynəlxalq hüququ görməzdən gəldilər. Halbuki Qarabağ beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınırdı, üstəlik, BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etmişdi. Lakin həmin qətnamələrin qəbuluna səs vermiş siyasi mərkəzlərin özləri belə onun icrasına laqeyd münasibət bəsləməklə beynəlxalq hüququ tapdaladılar, problemin güc yolu ilə həllinin qeyri-mümkün olduğunu deməklə, işğala rəvac verdilər.

Belə bir şəraitdə Azərbaycan dövləti torpaqlarını güc yolu ilə azad etməsinin mümkünlüyünü gizlətmədi və hərbi gücünü artırdı, ordusunun döyüş imkanlarını ən müasir standartlar səviyyəsinə yüksəltdi. Vətən müharibəsi və antiterror tədbirlərində qazanılan zəfərlər Azərbaycanın öz hədəflərinə inamla çata bilən dövlət olduğunu dünyaya nümayiş etdirdi.



Vətən müharibəsindən sonra Azərbaycan öz hərbi gücünü artırıb və Silahlı Qüvvələrimiz 4 il əvvəlkindən qat-qat güclüdür. "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir", - deyə dövlətimizin başçısı bildirmişdir.

Prezident İlham Əliyev həm də silahlanan Ermənistana və onun arxasında duran dövlətlərə xəbərdarlığını etdi: "İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".

Bəli, Azərbaycan müstəqil və qətiyyətli siyasəti olan dövlətdir. Vətən müharibəsi, torpaqlarımızda erməni separatçılığına son qoyulması da bunu təsdiq edir. Həm Ermənistan, həm də onun havadarları bilməlidirlər ki, Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq mümkün deyil.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Ceyhun BAYRAMOV: "COP29 qlobal sülh və iqlim gündəliyinə töhfə verilməsi üçün bir fürsət olacaq"

**İqlim dəyişikliyi, dağıdıcı münaqişələr, geosiyasi gərginliklər və artan bərabərsizlik kimi presedentsiz çağırışlarla qarşı-qarşıya qalan dünya həlledici yolayrıcındadır. Bu kritik dönəmdə "Gələcəyin Sammiti" aktual çağırışların həll olunması, uçurumların aradan qaldırılması və çoxtərəfli sistemin bir vahid şəklində irəlilədiyini nümayiş etdirmək üçün bir fürsətdir.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində reallaşan "Gələcəyin Sammiti"ndə çıxışında deyib.

Bildirib ki, Azərbaycan özü beynəlxalq hüququn, o cümlədən humanitar hüququn pozulmasının ən faciəvi nəticələrini yaşayıb və BMT Nizamnaməsinin, habelə əsas orqanlarının çoxsaylı qətnamələrinin icra edilməməsi ədalətsizliyi ilə üzləşib. Məhz bu səbəbdən Azərbaycan beynəlxalq hüquqa ciddi riayət edilməsi və beynəlxalq normaların aşınmasının dayandırılması baxımından bu sammitin ideyasını tam anlayır. Nizamnamə və eləcə də orada əksini tapan bütün alətlər və mexanizmlər heç bir ikili standartlar, siyasi, coğrafi və ya hər hansı üstünlüklər olmadan qeyd-şərtsiz tətbiq edilməlidir.

"Biz Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) cəmi 17%-nin yerinə yetirildiyi Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinə aparan yolun tən yarısında görüşürük. İrəliləyişə nail olmaq üçün siyasi öhdəliklərimizi həlledici fəaliyyətə çevirməyə təcili ehtiyac var. Azərbaycan bu baxımdan DİM-lər üzrə irəliləyişi gücləndirmək üçün Baş katibin səylərini tam dəstəkləyir və 75-ci Yubiley Bəyannaməsindəki öhdəliklərə sadiq qalır. Biz milli səviyyədə 17 məqsəd, 88 hədəf və 119 göstəricini prioritetləşdirməklə irəliləyişə nail olmaqla digərlərinə nümunə göstəririk. Buna vətəndaş cəmiyyəti, biznes ictimaiyyəti, qadınlar, gənclər və digər əsas maraqlı tərəfləri əhatə edən əməkdaşlıq və inklüziv proses vasitəsilə nail olunub.

Ərazilərimizin işğaldan azad edilməsi DİM-lərə nail olunması baxımından da yeni səhifə açıb. Hökumət DİM-lərin həyata keçirilməsinin bütün aspektlərini əhatə edən on milyardlarla ABŞ dolları dəyərində genişmiqyaslı yenidənqurma və bərpa səylərinə başlayıb.

Bundan əlavə, Azərbaycan DİM18, mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər üzrə milli məqsədi təqdim edib. Təcili humanitar ehtiyacların həlli, yaşayış vasitələrinin bərpası və icmaların canlandırılmasında minalardan təmizlənmənin həlledici olduğunu nəzərə alaraq, daha böyük beynəlxalq dəstəyə və həmrəyliyə çağırırıq.

Biz, həmçinin 2030 Gündəliyi üzrə dörd Könüllü Milli Hesabat təqdim edən regionumuzda birinci ölkə olmaqla, bütün dünyada azsaylı ölkələr sırasındayıq. 2024-cü il Dayanıqlı İnkişaf Hesabatında



Azərbaycan dünya ölkələrinin üçdəikisindən irəlidədir", - deyə nazir qeyd edib.

Nazirin sözlərinə görə, Azərbaycan BMT Nizamnaməsi tərəfindən qorunan suverenlik və ərazi bütövlüyü hüquqlarını bərpa edərək yeni dövrə qədəm qoyub: "Azərbaycan gücdən istifadənin qanunsuzluğuna son qoymaqla Ermənistanla tam şəkildə bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət edilməsinə əsaslanan postmünaqişə normallaşma gündəliyinin təməlini qoyub.

Biz ikitərəfli danışıqlar vasitəsilə əldə edilmiş irəliləyişi əsas götürərək, yerdə qalan əngəlləri aradan qaldırmaq üçün təcili addımlar atmağa çağırır, lazımi siyasi iradənin və məsuliyyətin nümayiş etdirilməsinin vacibliyini vurğulayırıq".

Nazir əlavə edib ki, əsrin ən böyük transmilli çağırışı olan iqlim dəyişikliyini aradan qaldırmaq zəruridir. Bu, gələcək risk deyil, bütün dünyada hazırda milyardlarla insan üçün mövcud olan təhlükədir.

2024-cü ilin noyabr ayında Azərbaycan İqlim Dəyişmələri üzrə BMT-nin Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək. "Yaşıl Dünya naminə Həmrəylik" çağırışını rəhbər tutaraq, Azərbaycan iqlim dəyişikliyinə qarşı daha davamlı və dayanıqlı dünya üçün əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək. Biz həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri bir araya gətirməyi və ümumi öhdəlik və mənəvi vəzifə qismində iqlim çağırışlarını həll etmək məqsədilə əməkdaşlıq ruhunu təşviq etməyi hədəfləyirik.

"Başlamaqda olan COP29 sədrliyi çərçivəsində biz bütün tərəflər və maraqlı bitərəf tərəfdaşlar ilə inklüziv şəkildə işi davam etdiririk. Azərbaycanın COP29 sədrliyinin əhatəli və inklüziv strategiyası bu il əsas prioritet qismində yeni iqlim maliyyəsi hədəfinin qoyulması ilə ambisiyanın artırılması və fəaliyyətə şərait yaradılması kimi qarşılıqlı şəkildə bir-birini gücləndirən iki sütunda təşəkkül tapıb.

COP29, eyni zamanda qlobal sülh və iqlim gündəliyinə töhfə verilməsi üçün bir fürsət olacaq. Münaqişələr və iqlim böhranı kimi məsələlərin kəsişdiyini nəzərə alaraq, bir neçə gün əvvəl bəyan edilən Barışıq Çağırışında əksini tapmış COP29 naminə flaqman Barışıq Təşəbbüsünü təqdim edib. Biz COP29 ayı ərzində birliyə və barışığa hörmət etməyə çağırırıq.

Sonda gəlin bir daha iqlim davamlılığı və dayanıqlı inkişafın, sülh və təhlükəsizliyin, sadəcə, arzu-istək deyil, hamı üçün reallıq olduğu daha yaxşı gələcəyə sadiqliyimizi təsdiq edək.

Biz yalnız cəsarətli, inklüziv və əməkdaşlıq fəaliyyəti vasitəsilə buna nail ola bilərik", - deyə nazir sonda vurğulayıb.

# Nyu Yorkda COP29 sədrliyi və UNICEF-in uşaq və gənclərə həsr olunmuş birgə tədbiri reallaşıb

**Nyu Yorkda UNICEF-ın baş ofisində COP29 Sədrliyinin təşkilatçılığı ilə "Qlobal baxışın uşaqlar üçün təmin edilməsi: Uşaqların və gələcək nəsillərin iqlim fəaliyyətinin mərkəzinə yerləşdirilməsi" mövzusunda "dəyirmi masa" keçirilib.**



AZƏRTAC-ın məlumatına görə, tədbirdə çıxış edən COP29-un Prezidenti Muxtar Babayev bildirib ki, dünyada yaşayan uşaqların yarısı iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan ölkələrdə yaşayır. Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, iqlim dəyişikliyi nəticəsində yaranan xəstəliklərin 88 faizi beş yaşa qədər uşaqların üzərinə düşür. COP29 Prezidenti deyib ki, COP28-də tərəflər BƏƏ Konsensusu çərçivəsində uşaq və gəncləri iqlim fəaliyyətinin mərkəzinə yerləşdirməklə mühüm irəliləyiş əldə ediblər. "İyun ayında Bonnda keçirilən Ekspert Dialoqu BƏƏ Konsensusunun vədini yerinə yetirmək üçün vacib addım oldu. Lakin gələcək nəsillər qarşısında öhdəliklərimizi yerinə yetirmək üçün bizə davamlılıq lazımdır. Bu ayın əvvəlində COP sədrliklərinin üçlüyü uşaqlar və gənclər üçün davamlı təsir göstərməyə çalışacağı üç prioritet sahəni açıqlayıb. COP29 sədrliyi COP29-da və ondan sonra da üçlük tərəfdaşları olan BƏƏ və Braziliya ilə bu məsələdə davamlı əməkdaşlığa hazırdır".

Muxtar Babayev əlavə edib ki, COP29 sədrliyinin vizyonu ambisiyaları artırmaq və fəaliyyətə imkan verməkdir, gənclərə və uşaqlara dəstək bu iki bir-birini gücləndirən təməl prinsiplərə inteqrasiya edilməlidir. Onun sözlərinə görə, uşaqlar üçün maliyyə çatışmazlığını aradan qaldırmağa kömək edə biləcək çoxtərəfli iqlim fondları səfərbər edilməlidir. O bildirib ki, uşaqlar üçün iqlim maliyyəsini açmaqla onları iqlim dəyişikliyinin təsirlərindən qoruyan davamlı sosial infrastruktur yaratmaq mümkündür.

UNICEF-in icraçı direktorunun müavini Kitti van der Heyden BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində UNICEF-lə belə bir tədbirin təşkili üçün COP29 sədrliyinə təşəkkür edib. O bildirib ki, iqlim tək planeti deyil, uşaqları da dəyişir. Onun sözlərinə görə, iqlim dəyişikliyi uşaqların və hamilə qadınların sağlamlığı və həyat şəraiti üçün təhdid törədir: "Ölü və vaxtından əvvəl doğuş ehtimalı temperaturun 1 dərəcə artması ilə 5 faiz artır. Dünyada Milli Müəyyən edilmiş Töhfələrin (NDC) yarıdan azı uşaqlara və gənclərə həssaslıqla yanaşıb və yalnız 3 faizi uşaqların birbaşa iştirakı ilə tərtib edilib. İqlim fondlarının maliyyəsinin yalnız 2,4 faizi uşaqlar üçün nəzərdə tutulmuş dəstək proqramlarına sərf olunub". O, gündəliyi formalaşdırılması ilə bağlı COP29-la sıx işlədiklərini bildirib və uşaq hüquqlarının iqlimlə bağlı fəaliyyət gündəliyinin mərkəzində olmasını təmin etmək üçün əməkdaşlıqdan məmnun olduqlarını dilə gətirib.

Tədbirdə çıxış edən Uşaq İqlim vəkili Mariya Marşal, COP28 Gənc İqlim Çempionu və icmanın inkişafı naziri Şamma Al Mazrui, beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər və digər çıxışçılar uşaqları iqlim mövzusunun mərkəzinə qoymaq istiqamətində atılan addımlar, COP28 zamanı bu istiqamətdə görülən işlər, Azərbaycan COP29 çərçivəsində nə kimi tədbirlər həyata keçirəcəyi istiqamətində müzakirələr aparıblar.

Sonda çıxış edən COP29-un Gənc İqlim Çempionu Leyla Həsənova deyib ki, COP29-a 49 gün qalmış bütün səyləri sərf etmək və uşaqları bir daha iqlim müzakirələrinin mərkəzinə qoymaq çox vacibdir. Onun sözlərinə görə, Gənc İqlim Çempionunun rolu əsasən həm uşaqların, həm də gənclərin iqlim fəaliyyətində iştirakını asanlaşdırmaqdan ibarətdir. "Bizim təşəbbüsümüz və UNICEF-in dəstəyi ilə COP29 zamanı uşaq və gənclərin səslərini yüksəltmək üçün müxtəlif imkanlar təklif ediləcək. Biz hazırda uşaq və gənclər cəmiyyəti olan YOUNGO ilə müzakirələrdə Gənclərin İqlim Forumunda uşaqların ehtiyac və maraqlarını vurğulayırıq, uşaq və gənclər pavilyonunun irsinin davam etdirilməsi üçün gənclər təşkilatları ilə əməkdaşlıq edirik. Ekspert Dialoqunun davamı olaraq iqlimlə bağlı qərarların qəbul edilməsində və fəaliyyətində uşaq hüquqlarının əsas istiqamətlərinin müzakirəsi üçün tədbirlər keçiririk", - deyə Gənc İqlim Çempionu bildirib. O, maraqlı tərəfləri bu tədbirlərə qoşulmağa, gəncləri və uşaqları dinləməyə dəvət edib və bu istiqamətdə COP sədrlərinin üçlüyü ilə əməkdaşlıq etməyə hazır olduqlarını bildirib.

# Azərbaycan və Meksika arasında COP29-a hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub

**Sentyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Meksika Birləşmiş Ştatlarının xarici işlər naziri Alisia Barsena ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Meksika arasında ikitərəfli və çoxtərəfli münasibətlər, əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub.



Tərəflər ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində qarşılıqlı təmasların artırılmasının vacibliyini vurğulayıblar.

Azərbaycanın COP29 sədrliyi çərçivəsində sessiyanın təşkilinə hazırlıq işləri, bu istiqamətdə keçiriləcək əsas və yan tədbirlər, habelə aparılan danışıqlar prosesindən ətraflı bəhs edən nazir Ceyhun Bayramov COP29 sədrliyimiz dövründə iqlim dəyişikliyi ilə mübarizə sahəsində Meksika ilə də əməkdaşlığımızı inkişaf etdirmək niyyətində olduğumuzu bildirib.

Ənənəvi olaraq karbohidrogen resursları ilə zəngin ölkə kimi tanınan Azərbaycanın "yaşıl enerji" gündəliyinin irəlilədilməsində qərarlı olduğu, habelə bu istiqamətdə bir sıra beynəlxalq tərəfdaşlarla birgə çalışmaq niyyətində olduğu diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vyanada beynəlxalq festivalın açılışında COP29-a həsr olunmuş panel müzakirəsi təşkil edilib

**Sentyabrın 23-də Vyanada Beynəlxalq Mədəni Müxtəliflik Təşkilatının (ICDO) təsis etdiyi "Mədəniyyətlərarası bağlılığın uzun gecələri" mədəniyyət festivalının 7-ci buraxılışı başlayıb.**

AZƏRTAC xəbər verir ki, bir həftə davam edəcək festivalın açılış günü Azərbaycan Mədəniyyət Mərkəzində "Mədəni müxtəliflik və inklüzivlik" mövzusunda panel müzakirəsi təşkil edilib. Müzakirə mədəni müxtəliflik və inklüzivlik kimi mühüm mövzulara, xüsusilə Azərbaycanın evsahibliyi edəcəyi COP29-da gender bərabərliyi və iqlim siyasəti çərçivəsində inklüzivliyə necə yanaşılmalı olduğuna həsr edilib.

Tədbiri açılış nitqi ilə Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova və ICDO sədri Yosipa Palats açıblar.

Sonra Vyanada yaşayan azərbaycanlı musiqiçilər Fərid Feyzullayev (skripka) və Jalə Rəsulova (fortepiano), meksikalı soprano Neivi Martinez Azərbaycan və dünya bəstəkarlarının əsərlərini səsləndiriblər.

Panel müzakirəsində Əfqanıstanın Avstriyadakı səfiri Manizha Baktari, ATƏT-in İqtisadi və Ətraf Mühit Fəaliyyətləri üzrə koordinatoru Makit Jusupov, ICDO İcraiyyə Komitəsinin məsləhətçisi Antoni Lövtedt, Azərbaycanın Avstriyadakı səfirliyinin diplomatı Zülfiyyə Əlizadə və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının təmsilçisi Ela Meşinoviç çıxış ediblər.

Tədbir iştirakçıları Bakıda keçiriləcək COP29 ərəfəsində qadınların, milli azlıqların və təcrid olunmuş icmaların qərar qəbuletmə proseslərində təmsil olunmasını, bu yolda görülən işləri müzakirə ediblər. Çıxışlarda ədalətli iqlim idarəçiliyinin formalaşdırılmasında müxtəlif perspektivlərin və dayanıqlı gələcəyə hədəflənən strategiyaların vacibliyindən bəhs olunub.

Çıxışçılar Azərbaycanın evsahibliyi edəcəyi COP29-un iqlim dəyişikliklərinə qarşı mübarizədə uğurlu nəticələrin əldə edilməsi istiqamətində bir sıra təşəbbüslərə təkan verəcəyinə inam ifadə ediblər.

# BMT-də COP29 sədrliyinin irəli sürdüyü "Multisektoral Fəaliyyət Yolları" təşəbbüsünə həsr olunmuş konfrans keçirilib

**BMT Baş Assambleyasının 79-cu sessiyası və Nyu-York İqlim Həftəsi çərçivəsində BMT-nin baş qərargahında COP Sədrliyi, BMT-nin İnsan Məskunlaşmaları Proqramı və "Davamlılıq üçün Yerli Hökumətlər" (ICLEI) təşkilatının birgə təşkilatçılığı ilə "İqlimə Dayanıqlı və Sağlam Şəhərlərin Yaradılması Naminə Multisektoral Fəaliyyət Yolları (MAP)" adlı konfrans keçirilib.**



AZƏRTAC-ın məlumatına görə, tədbirin keçirilməsində məqsəd COP29 Sədrliyi tərəfindən irəli sürülən "Dayanıqlı və Sağlam Şəhərlərə aparan Multisektoral Fəaliyyət Yolları (MAP)" təşəbbüsünün təfərrüatları barədə iştirakçıları məlumatlandırmaqdır.

Tədbirin açılış hissəsində Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxış edərək bildirib ki, Azərbaycan qlobal gündəliyə sadiqdir və iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması tədbirlərini özündə birləşdirən milli inkişaf məqsədlərinə nail olmaq istiqamətində irəliləyir. Onun sözlərinə görə, neft və qaz sektorunda əsas aktorlardan biri olmaqla yanaşı Azərbaycan "yaşıl enerji"nin gələcəyinə hədəflənib və 2030-cu ilə qədər bərpaolunan enerji sektorunun payını 30 faizə çatdırmaq niyyətindədir.

O əlavə edib ki, iqlim çağırışları çoxdövlətli və çoxsektorlu əməkdaşlıq tələb edir və milli və lokal hökumətlər, özəl sektor və beynəlxalq ictimaiyyətin əməkdaşlığı nəticəsində Paris sazişinin məqsədlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq mümkündür.

Anar Quliyev Azərbaycanın 2026-cı ildə 13-cü Dünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyini vurğulayıb və COP29 çərçivəsində veriləcək qərarların forumda nəzərdən keçiriləcək vacib qərarların qəbuluna gətirib çıxaracağına əmin olduğunu bildirib.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudiya Rozbax və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Hökumətlərarası Dəstək və Kollektiv Tərəqqi bölməsinin direktoru Sesiliya Kinusiya Nyenqa çıxışlarında iqlim dəyişikliyi ilə mübarizədə şəhərlərin oynadığı mühüm rol haqqında danışıb, dayanıqlı və sağlam şəhərlərin salınması üçün multisektoral əməkdaşlığın əhəmiyyətindən danışıblar.

Tədbir çərçivəsində iki panel təşkil edilib. BMT-nin İnsan Məskunlaşmaları Proqramının nümayəndəsi Lea Ranalderin moderatorluğu ilə "Şəhərlərdə multisektoral iqlim fəaliyyəti və COP29-un rolu" mövzusunda təşkil edilmiş paneldə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçan, Ümumdünya Meteorologiya Təşkilatının baş katibi Selest Saulo, Türkiyənin Ekologiya Nazirliyində İqlim Dəyişikliyi bölməsinin direktoru Halil Hasar, Finlandiyanın Turku şəhərinin meri və İCLEİ-nin birinci vitse-prezidenti Mina Arv və "Bloomberg" təşkilatının nümayəndəsi Meqan Ross çıxış edərək şəhər iqlimi fəaliyyətində mövcud təşəbbüslər və mexanizmlər üzrə irəliləyişlər və ən yaxşı təcrübələr barədə danışıblar. Paneldə natiqlər MAP təşəbbüsünün innovativliyini, o cümlədən bir tərəfdən indiyədək COP çərçivəsində irəli sürülən təşəbbüslərdə əks etdirilməmiş yeni sahələri əhatə etdiyini, digər tərəfdən isə bu təşəbbüslərlə Ümumdünya Şəhər Forumu və Ümumdünya Ətraf Mühit Günü arasında sinerjinin yaranmasına töhfə verəcəyini vurğulayıblar. Meqan Ross çıxışında COP29 Şəhərsalma Günü çərçivəsində keçiriləcək Şəhərsalma və İqlim dəyişikliyi üzrə yüksəksəviyyəli iclasa "Bloomberg" tərəfindən ediləcək dəstək haqqında məlumat verib.

Daha sonra "Yerli iqlim maliyyəsinin sürətlənməsi üçün əməkdaşlığın inkişafı" mövzusu üzrə ikinci panel təşkil edilib. Paneldə Dünya Bankının Ətraf Mühit bölməsinin direktoru Valeriya Hikey, Şəhərlərdə İqlim Maliyyəsinə Liderlik Alyansının direktor müavini Prissilla Neqreyros, Beynəlxalq Maliyyə Korporasiyasının İqlim Strategiyası və Biznes bölməsinin baş meneceri Dip Nyungen Van Hut, Asiya İnkişaf Bankının İqlim Dəyişikliyi bölməsinin direktoru Noel Obrayan və son olaraq Asiya İnfrastruktur İnkişaf Bankının iqlim üzrə məsul əməkdaşı Çanping Şiye dayanıqlı və sağlam şəhərlərin qurulması üçün iqlim maliyyəsinin şəhərlərə istiqamətlənməsinin əhəmiyyətindən bəhs ediblər və MAP təşəbbüsünün bu sahədə qlobal maliyyələşmənin artırılmasına töhfə verəcəyini qeyd ediblər.

Son olaraq COP29 üzrə baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxış edərək maliyyə axınını artırmaq üçün şəhərlər və iqlim fondları arasında daha möhkəm körpünün qurulması üçün əməkdaşlığın vacibliyini qeyd edib. O, MAP Bəyannaməsi barədə danışıb və Şəhərsalma Günü çərçivəsində noyabrın 20-də COP29 çərçivəsində keçiriləcək Şəhərsalma və İqlim üzrə Nazirlərin 3-cü görüşü haqqında qısa məlumat verilib. Bildirib ki, MAP bəyannaməsi BMT agentlikləri və hökumətlərarası təşkilatlar, xeyriyyə təşkilatları, donorlar, çoxtərəfli inkişaf banklarına şəhər iqliminin maliyyələşməsi və maliyyələşmənin koordinasiyası üçün güclü əməkdaşlığa çağırış edəcək. O, çıxışında Şəhərlərin İqlim Fəaliyyəti üçün Bakı Davamlılıq Koalisiyasının yaradılacağını, MAP Bəyannaməsinə ölkələr və təşkilatların qoşula biləcəklərini qeyd edib.

# Bakıda Tacikistanın müstəqilliyinin 33-cü ildönümü münasibətilə tədbir təşkil edilib





**Sentyabrın 24-də Bakıda Tacikistanın dövlət müstəqilliyinin 33-cü ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib.**

Tacikistanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət nümayəndələri, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun təmsilçiləri, səfirlər, Milli Məclisin deputatları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra çıxış edən səfir İlxom Abduraxmon Tacikistanın müstəqillik dövründə keçdiyi inkişaf yolundan danışıb. O, müstəqilliyin ən böyük nailiyyəti olan sülhün, suverenliyin və milli birliyin təmin olunmasında tacik xalqının müdrikliyinin və Prezident Emoməli Rəhmonun rolunu xüsusi qeyd edib.

Diplomat Azərbaycan ilə Tacikistan arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib, əlaqələrin qurulmasında Ümummilli Lider Heydər Əliyevin xidmətlərini qeyd edib. O, həmçinin münasibətlərin daha da inkişafında hər iki ölkə rəhbərinin xüsusi rolunu vurğulayıb.

Azərbaycan hökuməti adından Tacikistan xalqını təbrik edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sülh və əmin-amanlıq arzularını çatdırıb.

O, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin uğurla inkişaf etdiyini, münasibətlərimizin qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslandığını diqqətə çatdırıb. Nazir uğurlu əməkdaşlığın əsasında dövlətlərimizin başçılarının şəxsi dostluq münasibətlərinin, eləcə də ölkələrimizin rəsmilərinin mütəmadi qarşılıqlı səfərlərinin dayandığını söyləyib. Bildirilib ki, həyata keçirilən səfərlər çərçivəsində aparılmış danışıqlar və imzalanmış sazişlər ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir.

S.Babayev ötən il iki ölkə rəhbərinin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin əhəmiyyətini qeyd edib.

Nazir Azərbaycan-Tacikistan əlaqələrinin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

# Qərbi Azərbaycan İcması bəyanat yayıb

"Qərbi Azərbaycan İcması olaraq, ABŞ Konqresində anti-Azərbaycan mövqeyi ilə tanınan ermənipərəst konqresmen Adam Şiffin 2024-cü il sentyabrın 18-də təqdim etdiyi növbəti anti-Azərbaycan qanun layihəsini qətiyyətlə pisləyir və qınayırıq. Qanun layihəsi həm adı, həm də məzmunu etibarilə təxribat xarakterli və yanlış bir addımdır.

Adam Şiffin ənənəvi anti-Azərbaycan mövqeyi və korrupsiyaya bulaşmış digər azərbaycanofob, keçmiş senator Bob Menendez kimi erməni lobbisi ilə korrupsioner əlaqələri onun dürüstlüyünü ciddi şəkildə şübhə altına alır.

Qarabağ ermənilərinin Azərbaycan dövlətinin reinteqrasiya və vətəndaşlıq təkliflərini rədd edərək sərbəst şəkildə ölkəni tərk etdiklərini nəzərə alaraq, Şiffin bu qanun layihəsi böhtan üzərində qurulub.

Adam Şiff 300 min azərbaycanlının Ermənistandan, 700 min azərbaycanlının isə uzun müddət işğal altında saxlanmış Azərbaycan ərazilərindən etnik təmizləmə nəticəsində zorla çıxarılmasını və Azərbaycanın, eləcə də azərbaycanlıların əmlakına, iqtisadiyyatına və mədəni irsinə vurulan yüz milyardlarla ABŞ dolları dəyərində ziyanı görməzdən gəlmiş, hətta dəstəkləmişdir. Bütün bunlar göstərir ki, təqdim olunan qanun layihəsi Azərbaycana qarşı şantaj cəhdidir. Bu addım həm də ABŞ-Azərbaycan münasibətlərinə ciddi zərbə vurmağa hədəflənib.

Qərbi Azərbaycan İcması olaraq, biz ABŞ Konqresindən bu təxribat xarakterli qanun layihəsini rədd etməsini və Adam Şiffin erməni lobbisi ilə korrupsiya əlaqələrinin araşdırılmasını tələb edirik".

# *Kanakların bəyanatı:* "Fransanın Yeni Kaledoniyada törətdiyi hadisələr Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır"

"Bu il mayın 13-dən - Yeni Kaledoniyadakı indiki hadisələrin başlanğıcından etibarən Fransa bu uzaq ərazidə köhnə müstəmləkə kabusunu yenidən canlandırmağa başlayır. Dövlətin adanın cənubundakı Mont-Dore kommunasında yerləşən Sent-Luis qəbiləsinə münasibəti, təəssüf ki, Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır. Heç bir xəcalət çəkməyən dövlət qeyri-mütənasib güc münasibətinə baxmayaraq, zərərsizləşdirilməli və susdurulmalı olan 1200 cinayətkarla iş aparırmış kimi davranır.

Tarixinə iz qoymuş qəbiləmiz üç övladının öldürülməsinə layiq idimi? Bu gənclər siyasi ideallarını cəsarətlə müdafiə etdikləri üçün öldürülmüşdü. Əllərində, sadəcə, ov tüfəngləri, daşatma alətləri, ayaqlarında sadə başmaqlar olan bu gənclər GIGN-in (Fransa Milli Jandarması) gülləleri altında can verdilər. Görünür, bizim bədbəxtliyimizə görə Yeni Kaledoniya ilə Fransa arasındakı bir neçə min kilometr məsafə özünümüdafiə anlayışını Sakit okeanda öldürmək üçün lisenziyaya çevirdi".

AZƏRTAC xəbər verir ki, bu fikirlər kanakların yaydıqları bəyanatda yer alıb.

Bəyanatda həmçinin deyilir: *"1981-ci ildə edam edilən müstəqillik lideri Pierre Declercqin sui-qəsdçilərinin peşman olmadıqları görünür. Buna görə də dövlətin üç gənc kanakı güllələmək üçün bu qədər vasitəni işə salmağa vadar edən səbəblərini sorğulamaq haqqımızdır. Daha narahatedici məqam isə hələ də sağ olan qəbiləmizin gənclərindən, qardaşlarının eyni aqibəti ilə üzləşməmək üçün hakimiyyətə təslim olmalarının tələb edilməsidir. Hər kəs bilir ki, belə kiçik ərazidə onlar istənilən anda yaxalanıb həbs oluna bilərlər.*

*Beləliklə, Sent-Luis adasında ədalətin qeyri-adi sürətlə "bərpa olunmasına" çalışırlar. Halbuki hakim Claire-Marie Casanovanın dediyi kimi, "ədalət heç vaxt zamanında yerində deyil, heç zaman vaxtından əvvəl olmayıb, həmişə gecikməsi ilə tənqid edilib". Bəs niyə qəbiləmizin hüquqi məsələlərində birdən-birə bu tələsiklik var? Bu suala cavab tələb olunur, çünki dövlə-*



*tin bu məsələdəki həqiqi motivləri ilə bağlı şübhələrimiz var.*

*Əminliklə bildiyimiz tək şey budur ki, bu dövlət üçün nə hüquqa hörmət edilməsi, nə də insan həyatlarının itirilməsi onun ilahi missiyasını yerinə yetirməyinə əngəl törətmir. Buna əmin olmaq üçün, sadəcə olaraq, bizim yollarımızda qanunsuz şəkildə dövr edən hərbi avtomobillərin sayının artmasını müşahidə etmək kifayətdir. Sanki qəbiləmizin ətrafında Sakit okeanın "Berlin divarı"nı tədricən yüksəldirlər. Torpaqlarımız blokadaya alınıb, əhalimiz aclıq çəkir və gənclərimiz öldürülür. Biz artıq yerli məhkəmədən heç nə gözləmirik. Ona məcburən müraciət edirik, amma onun ədalətsiz qərarları güclüləri qoruyur, zəifləri əzir və bizi anlaşılmazlığın dibinə salır.*

*Biz Sent-Luis qəbiləsinin istəmədən də olsa, dövlət tərəfindən təşkil edilmiş dəhşətli bir oyunun mərkəzində olduğuna əminik. Burada qurbanlar dövlət tərəfindən təşkil olunan təbliğat vasitəsilə cəllad kimi təqdim edilir və beləliklə, müstəmləkə nizamını qorumağa çalışırlar.*

*Əgər Sent-Luisdəki hazırkı sistem dövlətin bütün ərazini nəzarətdə saxlamaq iddiası üçün bir "qəza testi" kimi təsvir edilirsə, bilsin ki, bütün bir qəbiləni şəhid etmək bəlkə də Kanakın müstəqillik arzusunu boğmaqdan daha asan olacaq".*

Bəyanatı Qəbilə klan başçıları Şurasının sədri Eugene Decoire və şuranın üzvü Yohann Vamytan imzalayıblar.

# Daşkənddə "Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" mövzusunda Azərbaycan-Özbəkistan Media Forumu keçirilir

**Daşkənddə "Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" mövzusunda Azərbaycan-Özbəkistan Media Forumunun açılışı olub. AZƏRTAC xəbər verir ki, forum 2023-cü ilin avqustunda Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsi" çərçivəsində keçirilir.**






Tədbirdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Prezidenti Administrasiyasının Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid, həmçinin telekanalların və informasiya agentliklərinin nümayəndələri, o cümlədən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edirlər.

Forumun açılışında çıxış edən Özbəkistan Prezidentinin mətbuat katibi Şerzod Əsədov media sahəsində iki ölkə arasında fəal təmasların və sistemli dialoqun inkişaf etdiyini, fikir və təcrübə mübadiləsinin genişləndiyini, bunun real nəticələrə gətirib çıxardığını qeyd edib. O əlavə edib: "Qlobal təlatümlərin yaşandığı indiki dövrdə obyektiv məlumatların verilməsində ciddi təhlükələr var. Biz bunu hətta özlərini azadlıq etalonu kimi təqdim edən ölkələrdə də görürük. Bütün bunlar dünyada informasiya istehlakçılarına mənfi təsir göstərir.

Belə bir vəziyyətdə bizim qardaş Azərbaycanla əməkdaşlığımız xüsusi əhəmiyyətə malikdir. Ölkələrimiz arasında əlaqələr yeni səviyyəyə yüksəlib, dezinformasiyaya qarşı mübarizə üçün möhkəm zəmin yaradılıb".

Öz növbəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov çıxış edərək diqqətə çatdırıb ki, hazırda Azərbaycanda və Özbəkistanda media sektorunun inkişafına və əlaqələndirilməsinə cavabdeh təşkilatlar arasında əməkdaşlığın qurulması, hər iki ölkənin dövlət orqanlarının kommunikasiyaya məsul olan struktur bölmələrinin fəaliyyətinin gücləndirilməsi, bu sahədə təcrübə mübadiləsinin təşkili, media təhsili və media savadlılığı, o cümlədən media orqanlarının əməkdaşlığının genişləndirilməsi istiqamətində fəal iş aparılır.

MEDİA-nın icraçı direktoru bu il ölkəmizin genişmiqyaslı tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcəyini diqqətə çatdırıb və özbək həmkarlarını bununla bağlı görülən tədbirlərə və hazırlıq işlərinə, eləcə də işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq prosesinə davamlı yanaşma və Azərbaycanın "yaşıl dünya" naminə irəli sürdüyü təşəbbüslər barədə ictimaiyyətə ətraflı informasiya verməyə çağırıb.

Azərbaycan Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov media sahəsində təcrübə və uğurlu modellərin mübadiləsinin əhəmiyyətini vurğulayıb.

O əlavə edib ki, sosial şəbəkələr dəqiqləşdirilməmiş məlumatların yayılması platformasına çevrilir və bu öz növbəsində reallıq haqqında yanlış təsəvvürlər yaradır. "Son illərdə yalan məlumatların miqyası on dəfə artıb. Çoxları dezinformasiyanı əsas qlobal təhlükələrdən biri hesab edir", - deyə K.Həsənov vurğulayıb. Sektor müdiri ümidvar olduğunu bildirib ki, hazırkı Media Forumunda bu problemin həlli yollarını tapmaq mümkün olacaq.

Özbəkistan Ali Məclisi Senatının İnformasiya siyasəti və dövlət orqanlarında şəffaflığın təmin edilməsi komitəsində daimi əsaslarla çalışan senator Mahmud Parpiyev rəqəmsal dövrün informasiyanın ötürülməsi üçün yeni imkanlar açdığını vurğulayıb. O əlavə edib: "Sosial media vasitəsilə çoxlu məlumatlar əldə edirik. Amma təəssüf ki, biz onların axınını tənzimləyə bilmirik. Ona görə də indi informasiya müharibəsi gedir, biz qüvvələrimizi birləşdirib dezinformasiyaya qarşı mübarizə aparmalıyıq".

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev bu forumun medianın aktual problemlərinin həllinə kömək edəcəyinə, Azərbaycan ilə Özbəkistan arasında dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Media Forumu çərçivəsində "Dezinformasiyaya qarşı mübarizədə qabaqcıl beynəlxalq təcrübə", "Özbəkistan və Azərbaycanda əhalinin media savadlılığının artırılmasında dövlət və qeyri-dövlət media qurumlarının rolu" və "Özbəkistan ilə Azərbaycan arasında kütləvi informasiya və kommunikasiya sahəsində əməkdaşlığın gücləndirilməsi" mövzularında müzakirələr aparılıb.

# Azərbaycan-Özbəkistan Media Forumu öz işini sessiyalarda davam etdirib

Daşkənddə keçirilən "Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" adlı Azərbaycan-Özbəkistan Media Forumunun birinci sessiyasında "Dezinformasiya ilə mübarizədə beynəlxalq təcrübələr" mövzusu ətrafında müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, sessiyaya Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi direktorunun birinci müavini Dilşod Səidcanov moderatorluq edib.

Beynəlxalq Münasibətlər üzrə İnformasiya və Analitik Araşdırmalar Mərkəzinin direktoru Sancar Vəliyev çıxışında bildirib ki, Özbəkistan və Azərbaycan beynəlxalq sistemin sabitliyində və davamlılığında eyni dərəcədə maraqlıdır. "Ölkələrimiz müxtəlif regional təşkilatlarda fəal rol oynayır və ümumi gündəliyin həllinə mühüm töhfə verir. Media üçün mühüm olan məsələ də məhz bundan ibarətdir. Problemləri həll etmək üçün ilk növbədə informasiya departamentlərinin və informasiya agentliklərinin mətbuat xidmətlərinin sistemli daxili səyləri tələb olunur", - deyə Sancar Vəliyev qeyd edib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov çıxış edərək bildirib ki, Azərbaycan İkinci Qarabağ müharibəsinin gedişində çoxsaylı feyk məlumatlarla üzləşib. Amma təkcə cəbhədə deyil, informasiya meydanında da uğurlu mübarizə aparılıb.

Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi nəzdində Kütləvi Kommunikasiyalar Mərkəzinin rəhbəri Əkbər Rizayev mərkəzin fəaliyyətindən danışıb. O deyib ki, media sosial şəbəkələr vasitəsilə etibarlı məlumatların yayılmasında daha məsuliyyətli olmalıdır.

Azərbaycanın "Trend" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov bildirib ki, dezinformasiyanın miqyası okean kimidir və ona qarşı mübarizə aparmaq çox çətindir. Baş direktor Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə diqqəti və qayğısı sayəsində Azərbaycan mətbuatının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu da forum iştirakçılarının diqqətinə çatdırıb.

* * *

"Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" adlı Azərbaycan-Özbəkistan Media Forumunun ikinci sessiyası "Dövlət və qeyri-dövlət media təşkilatlarının Özbəkistan və Azərbaycan əhalisinin media savadlılığının artırılmasında rolu" mövzusuna həsr olunub.

AZƏRTAC xəbər verir ki, sessiyaya "Xəzər" Media Mərkəzinin baş direktoru Murad Dadaşov moderatorluq edib.

Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin Media təhsilində rəqəmsal texnologiyaların inkişafı şöbəsinin müdiri Tohir Umarov çıxış edərək bildirib ki, dövlət mediası lazımi resurslara və platformalara malikdir, onların və qeyri-dövlət mediasının səyləri uğurun açarı ola bilər. Şöbə müdiri əlavə edib: "Müasir təhsil layihələri, ictimai müzakirələr, jurnalistlər üçün treninqlər və təcrübə mübadiləsi proqramları əsas məqsədimizə - düzgün məlumatlandırılmış cəmiyyətin yaradılmasına nail olmağa kömək edəcək".

Özbəkistanın Milli Mediaya Dəstək və İnkişaf İctimai Fondunun direktoru Jahongir Azimov çıxışında ixtisası olmayan şəxslərin jurnalistika sahəsində sayının artması probleminə toxunub və bu problemlə mübarizənin vacibliyini qeyd edib.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Vüqar Əliyev çıxış edərək diqqətə çatdırıb ki, media savadlılığı yalnız müxtəlif informasiya mənbələri ilə işləyən jurnalistlər üçün deyil, həm də həqiqəti yalandan, doğru informasiyanı feyk xəbərdən ayırmaq üçün sadə insanlara, media məzmunu istehlakçılarına da lazımdır. "Oxucular xəbərlərin doğruluğuna əmin olmaq məqsədilə AZƏRTAC-ın informasiyalarına daha çox müraciət etməyə başlayıblar. Beləliklə, zənnimcə, biz media məzmunu istehlakçılarının informasiya mənbələrinə daxil olarkən prioritetləri müəyyənləşdirmək, onları etibarlılıq və media savadlılığı meyarına görə qiymətləndirmək bacarığının inkişaf etdirilməsində dolayısı ilə iştirak edirik", - deyə AZƏRTAC-ın İdarə Heyətinin sədri çıxışının sonunda vurğulayıb.

"Report" informasiya agentliyinin direktoru Fuad Hüseynəliyev tədbir iştirakçılarına məlumat verib ki, jurnalistlərin peşə bacarıqlarının artırılması məqsədilə agentlik çoxsaylı treninqlər keçirir. Direktor əlavə edib ki, onun rəhbərlik etdiyi media qurumu hər hansı bir xəbəri dərc etməzdən əvvəl onun etibarlılığını yoxlayır ki, bu da informasiyanın təqdim edilməsinin keyfiyyətinin əsas göstəricisidir.

# Forum başa çatdı

**Daşkənddə təşkil olunan "Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" Özbəkistan-Azərbaycan Media Forumunun sonuncu panel sessiyası "Kütləvi informasiya və kommunikasiyalar sahəsində Özbəkistan və Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunub.**




AZƏRTAC xəbər verir ki, Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin Təhlil və planlaşdırma idarəsinin müdiri Marat Aitovun moderatorluğu ilə keçirilən panel iclasında Özbəkistanın Milli Televiziya və Radio Şirkəti "Dunö Buylab" telekanalının direktoru Nodir Tulyaqanov çıxış edərək qeyd edib ki, ölkələrimiz arasında ikitərəfli formatda çox sıx əlaqələr mövcuddur. O, Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə həyata keçirilən layihələri də xatırladıb.

Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov media forumunun mövzusunun əhəmiyyətini qeyd edərək deyib: "Bildiyiniz kimi, minimum informasiya olan yerdə dezinformasiya geniş vüsət alır. Buna həm Azərbaycan, həm də Özbəkistan mətbuatında rast gələ bilərik. Biz gücümüzü birləşdirib bununla mübarizə aparmalıyıq".

Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin prorektoru Nozima Murodova gənc nəslin düşünən informasiya cəmiyyətinin bir hissəsinə çevrilməsinə kömək üçün təhsil müəssisələrində tətbiq edilməli olan layihə barədə məlumat verib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) Beynəlxalq münasibətlər şöbəsinin müdiri Nigar Hüseynova bildirib ki, Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi və Medianın İnkişafı Agentliyi ölkələrimiz arasında media sahəsində münasibətlərin qurulmasında və inkişafında xüsusi rol oynayırlar. O, MEDİA-nın AzTV ilə birgə hazırladığı yeni MEDİALAB layihəsi haqqında danışıb. "Bu layihənin əsas məqsədi ictimaiyyətin dezinformasiyaya qarşı müqavimətinin gücləndirilməsi, eləcə də rəqəmsal media mühitində media savadlılığının artırılmasından ibarətdir", - deyə N.Hüseynova qeyd edib.

Bununla da Media Forumu işini başa çatdırıb.

# Ombudsman UNICEF-in ölkəmizdəki nümayəndəsini qəbul edib




**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Saca Faruq Abdullah ilə görüşüb.**

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı müvəkkil uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti haqqında qonağa ətraflı məlumat verib.

Beynəlxalq əməkdaşlıq çərçivəsində fəaliyyətindən danışan ombudsman beynəlxalq təşkilatlarla, həmçinin BMT və onun ixtisaslaşmış qurumları ilə sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu, bir sıra önəmli layihələrin həyata keçirildiyini qeyd edib.

Müvəkkil Ombudsman təsisatı ilə UNICEF arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayaraq müvafiq sahədə görülmüş işlərdən danışıb.

S.Əliyeva "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş son dəyişikliklər barədə məlumat verərək, uşaq hüquqlarının müdafiəsi və bir sıra digər sahələrdə mandatının genişləndiyini bildirib.

Ombudsman milli preventiv, habelə uşaq hüquqları sahəsində müstəqil monitorinq mexanizmləri çərçivəsində, eləcə də yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsi, məhkumların və onların ailə üzvlərinin müraciətləri əsasında ölkə Prezidentinə əfv təklifləri ilə müraciət etməsi və digər istiqamətlərdə görülən işlər haqqında da geniş məlumat verib.

Müvəkkil azad edilmiş ərazilərimizdə işğal dövründə Ermənistan tərəfindən basdırılmış minaların mülki şəxslərin həyat və sağlamlığına təhlükə yaratdığını bildirib, uşaqların da minadan zərər çəkən şəxslər arasında olduğunu və onların mina təhlükəsizliyi barəsində məlumatlandırılmasının əhəmiyyətini vurğulayıb.

UNICEF-in ölkəmizdəki nümayəndəsi Saca Faruq Abdullah öz növbəsində səmimi qəbula görə ombudsmana minnətdarlığını bildirib.

Görüşdə həmçinin qurumlar arasında gələcək əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

# 161 min hektardan çox ərazi minalardan təmizlənib

**Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız artıq azadlığına qovuşub. Zəfərdən qısa müddət sonra Qarabağ və Şərqi Zəngəzurda başladılan genişmiqyaslı tikinti-quruculuq işləri davam edir. Artıq səkkiz min nəfərdən çox keçmiş məcburi köçkün əzəli yurdlarına dönüb. Bu proses daha sürətli ola bilərdi, əgər Ermənistanın ölkəmizə qarşı mina terroru olmasaydı.**



İşğal və postmünaqişə dövründə ərazilərimizin minalarla çirkləndirilməsi və mina-tələlərin quraşdırılması bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin yurdlarına qayıdışını ləngidir. Ermənilərin Qarabağ və Şərqi Zəngəzuru mina tarlalarına çevirməsi nəticəsində 3 mindən çox vətəndaşımız zərər görüb. 2020-ci ilin noyabr ayından indiyədək 379 nəfər mülki şəxs mina qurbanı olub. Onlardan 70 nəfəri həyatını itirib, 309 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Hazırda Azərbaycan mina ilə ən çox çirkləndirilmiş ölkələr sırasındadır. Təxmini hesablamalara görə, işğaldan azad edilmiş ərazilərimizdə 1,5 milyona yaxın mina basdırılıb. 9 min kvadratkilometrə yaxın ərazimiz minalarla çirkləndirilib. Bu, ölkəmizə qarşı aparılan mina terrorunun miqyasının nə dərəcədə böyük və dəhşətli olduğunu göstərir.

Qarabağ və Şərqi Zəngəzurda minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən ərazilərimizdə bu proses fasiləsiz həyata keçirilir. ANAMA-nın məlumatına görə, sentyabrın 16-sından 22-sinə qədər Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 74 piyada əleyhinə mina, 168 tank əleyhinə mina, 491 partlamamış hərbi sursat (PHS) aşkarlanıb. 968,3 hektar ərazi mina və PHS-lərdən təmizlənib. Ümumilikdə isə Vətən müharibəsindən indiyədək Qarabağ və Şərqi Zəngəzurda 161 min hektardan çox ərazi minalardan təmizlənib, 160 minə yaxın mina və müxtəlif təyinatlı hərbi sursatlar tapılaraq zərərsizləşdirilib.

Əslində, Ermənistan tərəfindən mina xəritələri zamanında və düzgün şəkildə təqdim edilsəydi, minatəmizləmə prosesi daha tez və itkisiz həyata keçə bilərdi. Amma niyyəti heç bir zaman sülh olmayan düşmən bütün çağırışlara baxmayaraq, minalanmış ərazilər barədə dəqiq məlumatları, xəritələri ölkəmizə təqdim etməkdən boyun qaçırır. Ermənistan üçtərəfli Bəyanatın imzalanmasından sonrakı ilk aylarda mina xəritələrinin mövcudluğunu, ümumiyyətlə, inkar edirdi. Daha sonra verdiyi xəritələrin dəqiqliyi isə cəmi 25 faiz oldu. Qaydalara əsasən, mina sahələrinin formulyarlarında istinad nöqtələri, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə üsullarına dair məlumatlar qeyd edilir. Formulyarlar üzərində təhlil və emal işləri aparıldıqdan sonra məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının qeyri-dəqiq, natamam və yararsız olduğu üzə çıxıb.

Mülki təyinatlı sahələrin minalanması Ermənistanın məkrli niyyətinin göstəricisi, insanlığa qarşı terror aktıdır. Bu, Ermənistanın mina terrorçusu olduğunu təsdiqləyir və onun cinayətkar xislətini ortaya qoyur.

İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətləndirilməsi, həmin ərazilərdə çalışan mülki şəxslərin, eləcə də keçmiş məcburi köçkünlərin doğma yurdlarında təhlükəsiz yaşaması üçün Ermənistanın minalanmış ərazilərin dəqiq xəritəsini verməsi vacibdir. Bu olmasa belə qüdrətli dövlətimiz öz gücü hesabına işğaldan azad etdiyi bütün əraziləri minalardan təmizləyərək, abad və təhlükəsiz zonaya çevirəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# NATO Baş katibinin Əməliyyatlar üzrə köməkçisinin müavini Azərbaycanın üzləşdiyi mina təhlükəsi barədə məlumatlandırılıb

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) sədr müavini Samir Poladovun rəhbərliyi ilə ANAMA nümayəndələri və Azərbaycanın NATO yanında Nümayəndəliyi Brüsseldə NATO Baş katibinin Əməliyyatlar üzrə köməkçisinin müavini Burcu Sanla ikitərəfli görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı ANAMA-nın nümayəndə heyəti ölkəmizdə mina təhlükəsinin miqyası, bu sahədə qarşıya çıxan çətinliklər və problemin aradan qaldırılması istiqamətində görülən tədbirlər barədə məlumat verib. Samir Poladov Azərbaycanda minaların humanitar, iqtisadi və ekoloji fəsadlarını vurğulayaraq, 2020-ci ilin noyabr ayından bəri 379 azərbaycanlının mina partlamaları nəticəsində həlak olduğu və yaralandığı, həmçinin minaların məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışını və həmin ərazilərdə yenidənqurma və bərpa işlərinin aparılmasını ciddi şəkildə ləngitdiyini diqqətə çatdırıb.

Görüş çərçivəsində eyni zamanda humanitar minatəmizləmə sahəsində əməkdaşlıq, yeni texnologiyaların tətbiqi, Qərvənd Sülh Naminə Tərəfdaşlıq Etimad Fondunun yaradılmasının tezləşdirilməsi məsələləri müzakirə edilib.

# Azərbaycan diasporu İsveçrə parlamentinə bəyanat ünvanlayıb



**İsveçrə Federal Məclisinin bir qrup deputatı tərəfindən İsveçrə hökumətinə ünvanlanan və məzmunca Azərbaycana qarşı qərəzli xarakter daşıyan sorğu İsveçrədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən etirazla qarşılanıb.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, İsveçrədəki Azərbaycan diaspor təşkilatları İsveçrə parlamentinə bununla əlaqədar bəyanatlar ünvanlayıblar. Bəyanatlarda hər iki dövlətin qarşılıqlı əlaqələrinin önəmi vurğulanıb. Cənubi Qafqazda sülhün əleyhinə olan qüvvələrin COP29-dan istifadə edərək öz məqsədlərinə çatmaq cəhdləri diqqətə çatdırılıb.

Cari ilin noyabr ayında keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP) qlobal ekoloji problemlərin həlli istiqamətində töhfəsi ilə yanaşı, regionda sülhün təminatı baxımından da vacibliyi qeyd olunub.

İsveçrə parlamentində səslənən "soyqırımı" və "etnik təmizləmə" ittihamlarının reallığı əks etdirmədiyi vurğulanıb, bu tip ifadələrin İsveçrənin dövlət qurumlarında müzakirəsinin narahatlıq doğurduğu bildirilib.

COP29-un xarici manipulyasiya üçün deyil, əsas iqlim məsələlərini həll etmək üçün vacib platforma olduğu xatırladılıb. İsveçrə parlamentinin üzvləri məsuliyyətli yanaşma nümayiş etməyə çağırılıb.

# Ermənistan təzminat ödəməlidir

## Ermənilərin 30 ilə yaxın işğal altında saxladıqları ərazilərimizdəki dağıdıcılıq əməlləri cavabsız qalmayacaq

**Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi həm də Ermənistanın barbar və talançı simasını üzə çıxardı. Əsrlər boyu özlərini dünyaya "əzabkeş xalq" qiyafəsində sivil toplum kimi sırıyan ermənilər Azərbaycan ərazilərində törətdikləri vəhşilikləri daha gizlədə bilmirlər. Dünya artıq erməni yalanlarına yox, özünün gördüklərinə, onların ərazilərimizdə törətdikləri vəhşiliklərin lal mənzərələrinə inanır.**



Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsi beynəlxalq hüququn fundamental prinsiplərini pozan və beynəlxalq hüquq tərəfindən qadağan edilmiş təcavüz aktıdır. Ermənistan silahlı qüvvələrinin Azərbaycan sərhədlərini keçməsi, ərazilərimizdə döyüşməsi və qeyri-qanuni erməni hərbi birləşmələri ilə əməliyyatlar planlaşdırması təcavüzün bariz nümunəsidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın bütün hərbi potensialı ilə məğlubiyyətini etiraf etməsi həm də təcavüzün etirafı idi. Bu, işğalçı dövlətin beynəlxalq məsuliyyətini təsdiqləyir, onun beynəlxalq öhdəliklərini pozaraq qeyri-qanuni vəziyyət yaratdığını və bu vəziyyətin doğurduğu nəticələrə görə məsuliyyət daşıdığını göstərir. Bir sözlə, suveren Azərbaycan ərazisində qeyri-qanuni işğal nəticəsində törədilmiş dağıntılara görə Ermənistan məsuliyyət daşıyır.

Erməni vandallığı tarixin heç bir mərhələsində sərhəd tanımayıb. Dəhşətlidir ki, bu vəhşilər təkcə insanlığa deyil, kainatdakı bütün canlı aləmə qarşı qırğın, soyqırımı törətməkdən hər zaman böyük zövq alıblar. Onlar dünyadakı heç bir canlıya xas olmayan vəhşilikləri etdikcə daha da azğınlaşıblar. Müəllifi olduqları ağlasığmaz terrorların cəzasız qalması isə ermənilərin daha da quduzlaşmasına şərait yaradıb. Çox təəssüf ki, bu cür qaniçən bir düşmənlə qonşuluqda yaşamaq və illərlə bu vandalların zülmünə sinə gərmək kimi müşkül bir taleyimiz olmuşdu. Zaman-zaman onların törətdikləri faciələrin qurbanına çevrilmiş, tarixi dədə-baba yurdlarımızdan məcburən çıxarılmışıq, əsir, qaçqın, köçkün həyatı yaşamışıq.

Dünyaya qan tökmək missiyası ilə gələn faşist ideologiyalı ermənilərin törətdikləri 1918-ci il mart soyqırımı, 1992-ci il 26 fevral - Xocalı soyqırımı, əsir götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər heç kəsin yadından çıxmayıb.

Amma dəfələrlə vurğulandığı kimi, erməni vandalları törətdikləri bu müsibətlər zamanı təkcə insanlığı hədəf almayıb, bütün canlı aləmə qənim kəsiliblər. Meşələri qırıb, çayların məcrasını dəyişib, münbit torpaqlarımızın səhralaşmasına çalışıb, təbii sərvətlərimizi talayıb, ümumiyyətlə, min illərin formalaşdırdığı zəngin ekosistemimizə ağır zərbə vurublar.

Ermənistanın işğalına son qoyulması vaxtilə bir milyon azərbaycanlının yaşadığı suveren Azərbaycan ərazilərində törədilmiş dağıntıların həcmini üzə çıxardı və cəmiyyətdə böyük sarsıntı yaratdı. Şəhər və kəndlərdə bütün tikililər, evlər, xəstəxanalar, infrastrukturlar, məscidlər, mədəniyyət abidələri, hətta qəbirlər belə yerlə yeksan edilmişdir. Belə hallara məhz Orta əsrlərdə, cəngəllik qanunlarının hökm sürdüyü vaxtlarda rast gəlinərdi. Halbuki beynəlxalq hüquq faktiki olaraq işğalçı dövlətin nəzarəti altında yerləşən ərazilərin işğal rejimi altında olduğunu və işğal etmiş dövlətin orada baş verənlərə görə məsuliyyət daşıdığını vurğulayır, eyni zamanda mülkiyyətin, mədəni irsin, tarixi abidələrin, xəstəxanaların və sairə obyektlərin dağıdılmasını qadağan edir.

Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ətraf 7 rayonda 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox (2625 ədəd) tarix və mədəniyyət abidəsi vardı. Dövlət qeydiyyatına alınan abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələri idi. Eyni vandallıq əməllərini onlar Ermənistan ərzisindəki tarixi torpaqlarımızda Azərbaycan xalqına aid maddi-mədəniyyət abidələrinə qarşı da həyata keçiriblər. Təkcə bir faktı diqqətə çatdıraq ki, XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, bu gün Ermənistan ərazisində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb. Bunu da erməni xislətinə uyğun olaraq "gözə kül üfürmək"dən ötrü saxlayıblar.

Əlbəttə, bütün bu dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədini güdüb. Onlar bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar.

Ermənistanın qlobal səviyyədə maddi və mənəvi abidələri, ətraf mühiti, təbiəti qorumaq öhdəliyi vardı, lakin onları qorumaq üçün hər hansı addım atmışdırmı? Sual, əlbəttə, ritorikdir, çünki dağıntıların həcmi onu göstərir ki, Ermənistan dövləti məqsədyönlü şəkildə azərbaycanlıların bütün tarixi və mədəni izini silmək üçün bu dağıdıcı fəaliyyəti planlı şəkildə həyata keçirmişdir.

Bu gün sülh müqaviləsinin aktual olduğu bir dönəmdə Ermənistan təzminat ödəməklə hüquqi öhdəliyini yerinə yetirə bilər. Çünki hər iki dövlət arasında sülh və barışıq ilk növbədə maddi və mənəvi ziyanın ödənilməsini tələb edir. Əgər mənəvi ziyan Ermənistanın təcavüz və işğalçılıq siyasətinə görə Azərbaycan xalqından üzr istəməsini və ərazi iddialarından hüquqi və siyasi müstəvidə birdəfəlik imtinasını ehtiva edirsə, maddi ziyan fərdi və ictimai zərərin kompensasiyasını nəzərdə tutur. Ermənistanın işğal etdiyi ərazilərdə vurduğu zərərin həcmi Vətən müharibəsindən dərhal sonra hesablanıb. Ermənistanın təzminat ödəməsi bir neçə formada həyata keçirilə bilər. Belə ki, XX əsrin böyük münaqişələrinin yekununda məğlub olmuş təcavüzkar dövlətlərin zərərin ödənilməsi ilə bağlı öhdəlikləri sülh müqaviləsində öz əksini tapıbdır. Ermənistanla sülh danışıqları mütləq şəkildə məğlub ölkənin təzminat məsələsini əhatə etməli, onun vurduğu zərərin bərpa edilməsi üçün ödəyəcəyi məbləğin miqdarı və ödəniş formaları müəyyən olunmalıdır. Əgər Ermənistanın maliyyə durumu buna imkan vermirsə, beynəlxalq təzminat fondu yaradıla bilər və "dostları" həmin fond vasitəsilə Ermənistanın təzminatının ödənilməsində iştirak edə bilər. Ermənistan öz ərazisindən Azərbaycanın xeyrinə müəyyən güzəştləri özündə ehtiva edən təzminat razlışmasına da gedə bilər. Bu, Ermənistanın müəyyən əraziləri üzərində suveren hüquqlarından Azərbaycanın xeyrinə imtina etməsini və ya suveren ərazilərində müəyyən funksional suveren hüquqların, yəni müəyyən fəaliyyət sferalarının uzunmüddətli konsessiyasını özündə ehtiva edə bilər.

Beləliklə, ümid edirik ki, bəşəriyyətə qarşı mənfur əməlləri ilə özlərini gələcəksizliyə məhkum etmiş ermənilərin dağıdıcılıq əməlləri cavabsız qalmayacaq. Azərbaycan 30 ilə yaxın dövr ərzində bu vəhşiliyi törətmiş Ermənistana qarşı təzminat davası açacaq. Ermənistan illərlə törətdiyi başqa cinayət əməlləri kimi, bu dağıntılara görə də cavab verməli olacaq. Bu davada da mütləq Azərbaycan haqlı zəfərini qazanacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## "Əsrin müqaviləsi"nə daha bir əlavə

### AÇG-dən sərbəst təbii qaz hasilatı haqqında saziş imzalanıb

**SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) BP, MOL, INPEX, "Equinor","ExxonMobil", TPAO, ITOCHU və ONGC Videsh şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku üzrə mövcud Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) yeni bir əlavə edildiyi barədə sənəd imzalayıb.**

Bu əlavədə tərəflərə AÇG yatağının sərbəst təbii qaz (STQ) ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı istiqamətində irəliləmək imkanı verən düzəlişlər edilir. Ehtiyatların isə xeyli iri həcmlərdə - 4 trilyon kub futadək olduğu düşünülür.

Xatırladaq ki, 2017-ci il sentyabrın 14-də AÇG üzrə dəyişdirilmiş və yenidən işlənmiş HPBS imzalanıb və bununla sazişin müddəti 2049-cu ilin sonuna qədər uzadılıb. Bu günlərdə imzalanan yeni sənəd də məhz mövcud HPBS-nin müddəti bitənədək qüvvədə olacaq. Növbəti 25 il ərzində STQ ehtiyatlarının işlənməsinə milyardlarla dollar sərmayə qoyulması potensialı var. İnvestisiyaların həcmi ehtiyatların kəşfiyyatı və qiymətləndirilməsindən asılı olacaq. Onu qeyd edək ki, AÇG tərəfdaşlarının STQ layihəsində iştirak payları mövcud HPBS-də olduğu kimidir: BP (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), INPEX (9,31 faiz), "Equinor" (7,27 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), ONGC Videsh (2,31 faiz). BP operator olaraq qalır.

SOCAR-ın prezidenti Rövşən Nəcəf demişdir: "Yeni qaz sazişinin imzalanması SOCAR üçün yeni strateji mərhələdir. Azərbaycan qlobal enerji bazarlarında etibarlı tərəfdaş kimi enerji ehtiyatlarının daha da şaxələndirilməsi istiqamətində səylərini davam etdirir. Bu layihə tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da gücləndirəcək".

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel də STQ layihəsinə başlamaqdan məmnun olduqlarını bildirmişdir: "Biz AÇG-nin sərbəst qaz ehtiyatlarının işlənməsində böyük potensial görürük. Məhz öz 30 illiyində AÇG-nin möhtəşəm neft uğurları ilə yanaşı, təbii qaz layihəsi ilə yeni yola çıxması çox əlamətdardır. Son 30 ildə Azərbaycanın nəhəng dəyişiklikləri ölkəni dünyanın mühüm enerji təchizatçılarından birinə çevirmiş AÇG ilə bağlıdır. Amma bu saziş də, bəlkə, ilkin HPBS qədər əhəmiyyətlidir, çünki o, AÇG-nin tarixində ilk dəfə kommersiya qazının ixracına imkan verməklə bu əfsanəvi yatağın iqtisadi dəyərini daha da yüksəldəcək və Azərbaycanın Avropaya enerji təchizatını artırmaq planlarını dəstəkləyəcək".

Qeyd edək ki, STQ hazırda məhsul verən neft laylarının altında və üstündə olan çoxsaylı geoloji formasiyalardan ibarətdir. Bunlar mövcud AÇG HPBS-yə əvvəldən daxil edilməmişdir. 2022-ci ildə AÇG tərəfdaşları və SOCAR qaz təzyiqinə dair məlumatların toplanması üçün STQ laylarına bir qiymətləndirmə quyusunun qazılması barədə razılığa gəldilər. Qiymətləndirmə quyusu 2023-cü ildə tamamlanmış və əldə edilən məlumatların interpretasiyası gözlənilən təzyiq aralığında 4 trilyon kub futa qədər əhəmiyyətli təbii qaz ehtiyatlarının olduğunu təsdiqləmişdir.

Əlavəyə uyğun olaraq, SOCAR və AÇG tərəfdaşları hazırda STQ laylarının işlənməsi üçün növbəti tədbirləri planlaşdırırlar. Bu fəaliyyətlər çərçivəsində iki prioritet laydan qaz hasil etmək məqsədilə ilkin quyu qazılır. Quyu mühüm əhəmiyyət daşıyır, çünki hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək. Bunun əsasında isə gələcək işlənmə planlarını qurmaq mümkün olacaq.

Quyu "Qərbi Çıraq" platformasından qazılır və ilk qaz hasilatının 2025-ci ildə əldə ediləcəyi gözlənilir. İlkin quyudan hasil ediləcək bütün qazın alıcısının SOCAR olacağı barədə razılıq əldə edilib.

Onu da xatırladaq ki, indiyə qədər AÇG-dən təxminən 4,4 milyard barel (təxminən 593 milyon ton) neft hasil olunub və bu neft həcmləri dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri Qərb İxrac Boru Kəməri ilə çatdırılıb. AÇG-dən çıxarılan səmt qazının isə 57 milyard kubmetrdən çoxu Azərbaycan dövlətinə təmənnasız olaraq təhvil verilib.

*Flora SADIQLI, "Azərbaycan"*

## Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrinin perspektivləri müzakirə olunub

**İqtisadiyyat Nazirliyində keçirilmiş görüşdə Özbəkistanla iqtisadiyyatın bir sıra sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistan Respublikası Baş nazirinin müavini Cəmşid Xocayevlə görüşüb.

Görüşdə bildirilib ki, dövlət başçılarının siyasi iradəsi və birgə səyləri ölkələr arasındakı strateji tərəfdaşlıq əlaqələrinin təməlini təşkil edir. Özbəkistan - Azərbaycan əlaqələri çoxtərəfli xarakter daşıyır və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Özbəkistanla, enerji, kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlıq, səhiyyə və yükdaşımalar kimi sektorlarda geniş əməkdaşlıq gündəliyi üzrə işlər görülür. Sənayenin bir sıra istiqamətləri, eləcə də nəqliyyat-logistika üzrə işbirliyinin möhkəmləndirilməsi üçün münbit şərait var.

Görüşdə Azərbaycan və Özbəkistanda yüksək texnologiyalı məhsul istehsalının təşviqi, ticarət dövriyyəsinin artırılması, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi, xarici investisiyaların cəlb edilməsi kimi məqsədlərə yönəlmiş Azərbaycan - Özbəkistan İnvestisiya şirkətinin fəaliyyəti vurğulanıb. Bildirilib ki, birgə reallaşdırılan layihələr regionda iqtisadi sabitliyə, xalqlarımızın rifahına, ölkələrimizin biznes subyektlərinin perspektivli ticarət platformalarına çıxışına, yeni iş yerlərinin yaranmasına və yerli infrastrukturun təkmilləşməsinə təkan verəcək.

Tərəflər 2024-2025-ci illər üçün ticarət-iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsinə dair Yol Xəritəsi çərçivəsində sənaye, energetika, logistika, kənd təsərrüfatı və turizm sahələrində fəaliyyətin perspektivlərini dəyərləndiriblər.

## Daha bir qrup şəhid ailəsi üzvü və müharibə veteranı üçün təsərrüfatlar qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid ailələrinin üzvlərinin və müharibə veteranlarının məşğulluğuna dəstək davam etdirilir.**

Ötən bir həftə ərzində daha 36 şəhid ailəsi üzvü və müharibə veteranı özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin olunub.

Biznes planlarına uyğun olaraq onlara dönərxana, PVC qapı və pəncərə istehsalı, kiçik dərzi sexi, avtomobil şinlərinin bərpası və təmiri xidmətləri, avtoyağlama xidmətləri kimi istiqamətlər üzrə öz işlərini qurmaları üçün zəruri avadanlıqlar verilib.



Qeyd edək ki, bu il proqram çərçivəsində artıq 1291 şəhid ailəsi üzvü və müharibə veteranı özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin olunub.

## ABB-nin xalis mənfəəti 212 milyon manatı ötüb



**Cari il sentyabrın 1-nə Azərbaycan Beynəlxalq Bankı (ABB) 212 milyon manatdan çox xalis mənfəət əldə edib.**

Bu barədə ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov ABB səhmlərinin yerləşdirilməsinin nəticələri ilə bağlı brifinqdə deyib. AZƏRTAC xəbər verir ki, A.İbrahimov qeyd edib ki, yeni səhmdarlar da gələn ilin əvvəllərindən bankdan dividend gəlirləri əldə etməyə başlayacaqlar.

## Əlilliyi olan şəxslərə 71 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-avqust aylarında əlilliyi olan şəxslərə 71 min reabilitasiya vasitəsi verilib.**

Onlardan 4,6 mini təkərli oturacaq (o cümlədən 150-si mühərrikli təkərli oturacaq), 1599-u aşağı və yuxarı ətraf protezi, habelə 1663-ü eşitmə aparatı, 1855-i qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 2455 cüt protez, 4175 ortopedik ayaqqabı, 92 korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Bu ilin 8 ayı ərzində ümumilikdə 9,1 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

## "Azərtütün" ASC 4 rayondan 7 min tondan çox yaş tütün qəbul edib

**Ölkəmizin şimal-qərb bölgəsinin təsərrüfatlarında cari ildə də bol tütün var. Tədarükünə hələ 2 ay öncədən başlanılan yaş tütün yarpaqlarının yığımı və qəbul məntəqələrinə təhvili prosesi noyabrın sonlarınadək davam edəcək.**

Bölgədə tütün toxumunun becərilərək şitillərin fermerlərə paylanılmasından tutmuş qurudulmuş hazır məhsulun dünya bazarına çıxarılmasınadək iki şirkət - "Azərtütün" ASC və "Zaqatala AGRO İndustry" MMC məşğul olur. Hazırda ucsuz-bucaqsız tütün tarlalarında və hər iki müəssisənin qəbul məntəqələrində qızğın iş gedir. Toplanmış məhsul kameralarda qurudulur, çeşidlənir, preslənir və sifarişçilərə təhvil verilir.

"Azərtütün" ASC ilə müqavilə bağlamış tütünçülük təsərrüfatları əlverişli hava şəraitindən istifadə edərək məhsulu anbarlara vaxtında toplamağa çalışırlar. Mövsümün əvvəlindən indiyədək ASC-nin Balakən, Zaqatala, Qax və Şəkidəki istehsal və emalı məntəqələrinə 7,2 min tondan çox yaş tütün daxil olub. ASC-dən verilən məlumata görə, builki mövsümdə Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarında 662,1 hektar "Virciniya botaniki" növü əkilib. Həmin sahələrin 218,3 hektarı şirkətə, 443,8 hektarı fermerlərə məxsusdur. İlin əvvəlindən tütün əkən 57 fermerlə müqavilə bağlanıb. Son məlumata əsasən, emal məntəqələri istehsalçılardan Balakən üzrə 535,2, Zaqatala üzrə 720,1, Qax üzrə 1223, Şəki üzrə 4376,1, Oğuz rayonu üzrə 387,4 ton yaş tütün kütləsi qəbul edib. Eyni zamanda emal məntəqələrində 810,5 ton quru tütün istehsal olunaraq anbarlara yığılıb.

*Qurban MƏMMƏDOV, "Azərbaycan"*

## ◆ İcmal



## Qeyri-neft-qaz sənaye məhsulları istehsalında artım dinamikası yüksəkdir

**Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədi sənayenin şaxələndirilməsidir ki, bunu da ölkənin hərtərəfli inkişafı tələb edir. Sözsüz ki, bu zaman biz daha çox qeyri-neft-qaz sektorunun, o cümlədən qeyri-neft-qaz sənayesinin inkişafını nəzərdə tuturuq. Bəri başdan qeyd edək ki, bu inkişaf artıq yüksək sürət götürüb.**

Bunu konkret rəqəmlər də təsdiqləyir. Dövlət Statistika Komitəsinin cari ilin yanvar-avqust ayları üzrə açıqladığı məlumata görə, sözügedən dövr ölkədə 42,4 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı eyni səviyyədə qalmış, qeyri-neft-qaz sektorunda isə 7,8 faiz artım qeydə alınmışdır. Aparılan iqtisadi islahatların nəticəsi sənayedə qeyri-dövlət sektorunun payında da özünü göstərir. Belə ki, 8 ayda sənayedə qeyri-dövlət sektorunun payı 81,2 faiz olmuşdur.

Sənaye məhsullarının 64,4 faizi mədənçıxarma, 29,9 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir.

Mədənçıxarma sektorunda istehsalın ümumi dəyəri 27,3 milyard manat olmaqla ötən ilin müvafiq dövrünə nisbətən 0,2 faiz azalmışdır. Bu dövr sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 19,3 milyon ton, əmtəəlik təbii qaz hasilatı 25,1 milyard kubmetr təşkil etmişdir. Əmtəəlik neft hasilatı keçən ilin eyni vaxtı ilə müqayisədə 4,4 faiz azalmış, əmtəəlik qaz hasilatı 4,1 faiz artmışdır.

Emal sektoruna gəldikdə, bu sahədə məhsul istehsalının ümumi dəyəri 12 milyard 669,3 milyon manat olmuşdur. Keçən ilin eyni dövrü ilə müqayisədə əksər məhsulların istehsalında xeyli artım qeydə alınmışdır. Məsələn, kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 1 milyard 419,1 milyon manatlıq məhsul istehsal edilmiş, keçən ilin eyni dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 69,4, rezin və plastik kütlə məmulatlarının istehsalı 23,8, kimya sənaye məhsullarının istehsalı 8,7 faiz artmışdır. Bununla yanaşı, karbamid, metanol, azot, plastmas kisələr və çantalar, lövhələr, polietilendən kisə və çantalar, plastmas butulkalar, flakonlar istehsalında da yüksək artım müşahidə olunmuşdur. Son dövrlər artım dinamikası yüksək olan sahələrdən biri də tikinti materiallarının istehsalıdır və bu da təbiidir.

İşğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işləri ölkədə tikinti materiallarına tələbatı xeyli artırmışdır. Və həmin tələbatı ödəmək üçün 8 ayda ölkə üzrə 908,6 milyon manatlıq (ötən ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çox) tikinti materialları istehsal olunmuşdur. O sıradan sementdən, betondan kərpiclər və oxşar məmulatların istehsalı 73,3, asfalt istehsalı 37,9, beton istehsalı 32,3, betondan yığma tikinti konstruksiyalarının istehsalı 27,8, tikinti gipsinin istehsalı 13,8, sement istehsalı 12,8 faiz artmışdır.

Artım həmçinin metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində qeydə alınmışdır. Ümumilikdə bu sahələr üzrə 8 ayda 887,4 milyon manatlıq məhsul istehsal olunmuşdur. Metallurgiya sənayesi məhsullarının istehsalında 27,7, hazır metal məmulatlarının istehsalında 23,3 faiz artım olmuşdur.

Ölkəmiz üçün nisbətən yeni sənaye sahəsi olan kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalında da dinamika yüksəkdir. Belə ki, ötən ilin yanvar-avqust ayları ilə müqayisədə kompüter, elektron və optik məhsullarının istehsalı 72,2, elektrik avadanlıqlarının istehsalı 39,9 faiz artmışdır. Ən yüksək artım notbuk, güc transformatorları, ölçmə cihazları istehsalında qeydə alınmışdır - müvafiq olaraq 3,5 dəfə, 52,3 və 56,2 faiz.

Son statistik rəqəmlərdən aydın görünür ki, ölkədə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində islahatların nəticələri uğurludur. Prezident sentyabrın 23-də 7-ci çağırış Milli Məclisin ilk iclasındakı nitqində bu barədə demişdir: "Bu ilin iqtisadi sahədə göstəriciləri, hesab edirəm ki, müsbətdir. Səkkiz ayda iqtisadiyyat 4 faizdən çox artıb, qeyri-neft sektorunda 7 faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, - biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir".

*Rüstəm KAMAL, "Azərbaycan"*

## Azərbaycanla Çin arasında dəmir yolu ilə tranzit daşımalar artıb

**Çində səfərdə olan rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Çin Dövlət Dəmir Yollarının İdarə Heyətinin sədri Liu Cenfan ilə görüşüb.**

Görüşdə iki ölkənin dəmir yolları arasında əməkdaşlığın daha da genişləndirilməsi müzakirə edilib. AZƏRTAC xəbər verir ki, görüşdə həmçinin cari ilin yanvar-avqust aylarında Azərbaycan və Çin arasında dəmir yolu ilə tranzit daşımaların həcminin ötən ilin analoji dövrü ilə müqayisədə 275 faiz artdığı qeyd olunub.

Liu Cenfan Çinin Orta Dəhlizin cənub marşrutunun inkişafında və Azərbaycan, Qazaxıstan, Gürcüstan dəmir yollarının birgə iştirakı ilə yaradılmış "Middle Corridor Multimodal" şirkətinin işinə qoşulmaqda maraqlı olduğunu bildirib.

## Azərbaycan nefti cüzi ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,51 dollar və ya 0,65 faiz azalaraq 77,35 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Astanada "Füzuli - 530 misra" kitabının təqdimatı keçirilib





**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Qazaxıstanın paytaxtı Astanada Azərbaycan Mədəniyyəti Günləri keçirilir.**

AZƏRTAC xəbər verir ki, sentyabrın 24-də mədəniyyət günləri çərçivəsində Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında qazax dilində nəşr edilmiş "Füzuli - 530 misra" kitabının təqdimatı və "Füzuli - 530" mövzusunda ədəbi-poetik məclis təşkil olunub.

Tədbirdə Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri, iki ölkənin elm, mədəniyyət xadimləri və digər qonaqlar iştirak ediblər.

Kitab haqqında məlumat verən tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi İlqar Fəhmi qeyd edib ki, bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyidir. Bu münasibətlə Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən qazax dilində Füzulinin qəzəlləri və qəsidələrindən ibarət "Füzuli - 530 misra" kitabı nəşr olunub.

Qazaxıstan Mədəniyyət və İnformasiya Nazirliyinin Arxiv, sənədləşmə və kitab işi komitəsinin sədri Rüstəm Əli Azərbaycan Mədəniyyəti Günlərinin önəmindən danışıb. Vurğulayıb ki, iki ölkə arasındakı dostluq və hərtərəfli əməkdaşlıq bundan sonra da davam edəcək, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq.

Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin yaradıcılığından söz açıb. Bildirib ki, 2024-cü il yanvarın 25-də Prezident İlham Əliyev Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. O, anadilli poeziyanın mükəmməl nümunələrini yaradıb, Azərbaycan ədəbi dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəldib. Dahi şairin 530 illiyində belə bir kitabın nəşr olunması böyük əhəmiyyətə malikdir.

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Məhəmməd Füzulinin əsərlərinin bu gün də öz aktuallığını qoruyub saxladığını söyləyib.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova "Məhəmməd Füzulinin əsərlərinin qazax dilinə tərcüməsi" mövzusunda çıxış edib.

Azərbaycanın Xalq yazıçısı Elmira Axundova mədəniyyət günləri çərçivəsində təqdim ediləcək "Zərifə və Heydər Əliyevlər. Əbədi məhəbbətin tarixçəsi" kitabı haqqında məlumat verib.

Daha sonra mövzu ətrafında Azərbaycan Milli Elmlər Akademiyasının N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Fəridə Əzizova, kitabın tərtibçisi, şair, tərcüməçi Fərid Hüseyn və başqaları çıxış ediblər.

Bədii hissədə qiraətçi, aktyor Hüseynağa Aslanov və aktrisa Jalə Novruzova tərəfindən Füzulinin bir sıra qəzəlləri səsləndirilib. Xanəndələr - respublika və beynəlxalq müsabiqələr laureatları Orxan Hüseynli və Leyla Rəhimova Füzulinin qəzəllərini muğam üstə ifa ediblər. Qazaxıstan aktyorları Kazibek İskara və Guldana Alixan tərəfindən Füzuli şeirlərinin qazax dilinə tərcümələrindən nümunələr təqdim olunub. Qiraətçiləri Əməkdar artist Toğrul Əsədullayev (kamança) və respublika və beynəlxalq müsabiqələr laureatı İbrahim Babayev (tar) müşayiət ediblər.

Qeyd edək ki, layihənin rəhbəri və müəllifi Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, kitabın tərtibçiləri şair, tərcüməçi, AYB-nin katibi Səlim Babullaoğlu, şair Fərid Hüseyn, redaktoru Nurlıbek Samatulu, məsləhətçisi isə ədəbiyyatşünas Didar Kulkenovdur. Bakıda "Zərdabi nəşr"də işıq üzü görən kitabda dahi şairin 22 qəzəl və 6 qəsidəsi yer alıb.

# Bakıda Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatı Şurasının 74-cü sessiyası işə başlayıb

Sentyabrın 24-də Bakıda Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatı (EPPO) Şurasının 74-cü sessiyası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) və EPPO-nun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə təşkilata üzv dövlətlərdən olan nümayəndələr və Kənd Təsərrüfatı Nazirliyinin təmsilçiləri iştirak ediblər.

İkigünlük sessiyanın açılışında çıxış edən AQTA sədrinin müavini Zəkiyyə Mustafayeva bildirib ki, dünya miqyasında bitki sağlamlığının önəmi artır, bitkilərin xəstəlik və zərərvericilərdən mühafizəsi insanlar üçün həyati zərurətə çevrilir. EPPO tərəfindən bitki sağlamlığının qorunması, invaziv zərərli orqanizmlərin yeni ərazilərə keçməsi və yayılmasının qarşısının alınması üçün strategiyaların hazırlanması, zərərli orqanizmlərə qarşı müasir, təhlükəsiz və elmə əsaslanan effektiv mübarizə üsullarından istifadənin təşviq edilməsi isə olduqca əhəmiyyətlidir.

Z.Mustafayeva vurğulayıb ki, agentlik ötən dövr ərzində EPPO-nun fəaliyyətində aktiv iştirak etməklə yanaşı, ölkə ərazisində "Vahid sağlamlıq" konsepsiyasının, o cümlədən bitki sağlamlığının təmin edilməsi üçün zəruri və ardıcıl tədbirlər həyata keçirib. Hazırda isə agentlik bitki sağlamlığı sahəsində zərərli orqanizmlərə dair risklərin idarə edilməsi sisteminin qurulması, bitki mühafizəsi vasitələrinin qeydiyyatının və idxalı prosedurlarının sadələşdirilməsi, inteqrir bitki mühafizəsi üsullarının tətbiqinin genişləndirilməsi, bioloji mübarizənin təşviqi hesabına zəhərli kimyəvi vasitələrdən istifadənin minimuma endirilməsi kimi hədəflər üzərində iş aparır. Z.Mustafayeva agentliyin bitki sağlamlığı ilə bağlı fəaliyyətinə beynəlxalq təşkilatlar, o cümlədən Bitki Mühafizəsi haqqında Beynəlxalq Konvensiya, EPPO kimi təşkilatların daim böyük dəstək göstərdiyini və bundan sonra bu əməkdaşlığın daha da genişlənəcəyinə ümid etdiyini vurğulayıb.

Tədbir digər çıxışlarla davam etdirilib. Sessiya sentyabrın 25-də yekunlaşacaq.

Qeyd edək ki, sentyabrın 23-də Bakıda EPPO-nun İcraiyyə Komitəsinin iclası keçirilib. Bu sessiya və iclasın ölkəmizdə keçirilməsi EPPO Şurasının ötən il sentyabrın 27-28-də Fransanın Paris şəhərində təşkil olunan 73-cü sessiyası zamanı EPPO rəhbərliyi tərəfindən təklif edilib.

# XİN Çeçenistanda saxlanılan Azərbaycan vətəndaşlarının ölkəmizə geri dönüşü ilə bağlı məsələyə aydınlıq gətirib

"Azərbaycan vətəndaşları 1975-ci il təvəllüdlü Şirinov Elxan Əkbər oğlunun, 1982-ci il təvəllüdlü Məhərrəmov Vüqar Nazim oğlunun və 2004-cü il təvəllüdlü Rzayev Nihad Tafdıq oğlunun saxlanıldığı barədə məlumat daxil olan kimi, vətəndaşlarımızın ölkəmizə geri qaytarılması məqsədilə dərhal Rusiya Federasiyası Xarici İşlər Nazirliyinə nota ünvanlanıb, Rusiyanın Xarici İşlər Nazirliyi və digər aidiyyəti qurumları ilə danışıqlar aparılıb. Bununla yanaşı, saxlanılmış vətəndaşlarımızla səfirliyimiz tərəfindən telefon danışığı baş tutub".

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə məsələ ilə bağlı medianın sualına cavabında bildirib.

O deyib: "Vətəndaşlarımızın ölkəmizə geri qaytarılması istiqamətində aparılmış iş nəticəsində qeyd edilən şəxslərin sentyabrın 21-də Rusiya Federasiyası ilə dövlət sərhəd keçid məntəqəsindən quru yolla Azərbaycana qayıdışı təmin edilib".

# Beynəlxalq axtarışda olan altı nəfərin Azərbaycana ekstradisiyası təmin edilib

**"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 2002-ci il oktyabrın 7-də qəbul edilmiş Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Həbibov Orxan Afiq oğlunun, Şirinov Elcan Akif oğlunun, Süleymanov Zülfüqar Vahid oğlunun, Vəliyev Arif Rasim oğlunun və Səlimov Pərviz Rzavan oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.**

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bundan başqa, "Ekstradisiya haqqında" Avropa Konvensiyasının tələblərinə uyğun olaraq Azərbaycan vətəndaşı Sadıqov Elmar Nadir oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatəti Gürcüstanın Ədliyyə Nazirliyi tərəfindən təmin edilib.

Həmin şəxslərin Azərbaycan Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlar qəbul edilib və istintaqdan qaçıb gizləndiklərinə görə onlar beynəlxalq axtarışa veriliblər.

Elmar Sadıqov Gürcüstan ərazisində saxlanılaraq cari il sentyabrın 17-də, digər qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq sentyabrın 23-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.09.2024-cü il tarixi saat 23:00-dan etibarən 26.09.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.

## "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

28 oktyabr 2024-cü il tarixdə saat 15:00-da Abşeron rayonu Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

"Səba" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. "Səba" ASC-nin Direktorlar Şurası barədə;
2. "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə kredit öhdəliyinin ötürülməsinə dair əqd barədə;
3. "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə məxsus əmlakın ipoteka ilə yüklü edilməsinə dair əqd barədə;
4. "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-nin nizamnamə kapitalındakı "Səba" ASC-yə məxsus payların satılmasına dair əqd barədə;
5. "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Qarabağ Taxıl" MMC-nin birgə təsisçiliyi ilə yaradılmış "Qarabağ Toxum" MMC-nin nizamnamə kapitalındakı "Qarabağ Taxıl" MMC-yə məxsus payların satılmasına dair əqd barədə;
6. "Səba" ASC-nin törəmə cəmiyyəti olan "Qarabağ Taxıl" MMC-nin ötən illərin yığılmış mənfəətinə əsasən dividendlərin elan edilməsi barədə;
7. "Səba" ASC-nin əvvəllər emissiya edilib yerləşdirilmiş və geri alınmış səhmləri barədə;
8. "Səba" ASC-nin birgə təsisçiliyi ilə yaradılmış "Biləsuvar Aqro" MMC-nin nizamnamə kapitalındakı payların satılması barədə;
9. "Səba" ASC-nin nizamnamə kapitalındakı minoritar səhmdarlara məxsus səhmlərin geri alınması barədə;
10. "Səba" ASC-nin Nizamnaməsinin yeni redaksiyası barədə.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidir.

**Əlaqə telefonu: +994124044441;**
**Ünvan: AZ0100, Abşeron r-nu Xırdalan ş., Heydər Əliyev pr-ti,1.**

***"Səba"ASC-nin İdarə Heyəti***


# Bayden artıq lider kimi qərar qəbul etmir

**Səlahiyyətlərini başa vurmaqda olan Co Bayden ABŞ-nin yeni seçiləcək prezidentinə xaosa qərq olmuş dünya miras qoyur. Amerikanın The Wall Street Journal (WSJ) qəzeti yazır ki, beləliklə, Baydenin varisi üçün fəaliyyət şəraiti o qədər də rahat olmayacaq.**



Məqalədə bildirilir ki, bu, 4 il öncə Baydenin miras aldığı dünyadan daha təhlükəli dünyadır və ABŞ-nin maraqları üçün daha az əlverişlidir.

Qəzet ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasını Baydenin ən dağıdıcı qərarı adlandırıb. Qeyd olunur ki, bu administrasiyanın siyasəti nəticəsində "ABŞ-nin çəkindirmə sisteminə inam çöküb" və ölkə 1930-cu illərdən bu yana dünyadakı təsiri ilə bağlı ən böyük enişi edib. Eyni zamanda ölkənin hazırkı liderinin Asiya-Sakit okean regionunda böyük uğurlar qazandığı vurğulanır.

Amerikalı iqtisadçı Ceffri Saks isə deyib ki, Bayden artıq lider kimi qərarlar qəbul etmir. Ekspert qeyd edib ki, Baydenin amerikalılarla tutarlı danışıb-danışa bilməyəcəyi məlum deyil, lakin indi qətiliklə bildirmək olar ki, o qərar qəbul etmək iqtidarında deyil.

İqtisadçı Baydenin son vaxtlar media təmsilçilərinə qarşı qeyri-adekvat hərəkətlərini də xatırladıb.

Bir müddət əvvəl Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp demişdi ki, Co Bayden tezliklə ABŞ-ni üçüncü dünya müharibəsinə sürükləyəcək. O, Ağ Evin hazırkı rəhbərini ölkənin ən pis prezidenti adlandırmışdı. Trampın sözlərinə görə, Bayden dövründə ölkədə kriminogen durum nəzarətdən çıxıb, Avropa xaos içindədir, Yaxın Şərq isə "partlayır".

2001-ci ildən Əfqanıstanda olan Amerika Birləşmiş Ştatları 2021-ci ilin may ayının əvvəlindən buradakı qoşunlarını tələsik çıxarmağa başlayıb. Həmin il avqustun 31-nə keçən gecə hərbi kontingentin çıxarılması başa çatıb. Bunu şərh edən Tramp hadisəni ölkə tarixində ən böyük biabırçılıq adlandırıb.

ABŞ-də növbəti, 60-cı prezident seçkiləri 2024-cü il noyabrın 5-nə təyin edilib. Donald Trampın rəqibi Demokratlar Partiyasının namizədi Kamala Harrisdir.

Son məlumata görə, respublikaçıların prezidentliyə namizədi Donald Tramp və onun demokrat rəqibi Kamala Harrisin reytinqi bərabərdir: amerikalı seçicilər hələlik onların hər birinə 49 faiz səs verir. Sorğunun nəticələrini "Pew Research Center" Tədqiqat Mərkəzi öz saytında təqdim edib.

Respondentlər bildiriblər ki, Trampın əsas üstünlüyü onun təklif etdiyi iqtisadi siyasətə, Harrisinki isə abortla bağlı mövqeyinə görədir.

Eyni zamanda seçicilərin əksəriyyəti kimə səs verəcəklərini artıq müəyyənləşdirdiklərini bildiriblər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin kollektivi iş yoldaşları Aydın Musa oğlu İbrahimova həyat yoldaşı **GÜLŞƏN MƏMMƏD QIZI İBRAHİMOVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4204
Sifariş 2170

Qiyməti 60 qəpik